RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 83 (8676) CÜMƏ AXŞAMI, 22 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# İLHAM ƏLİYEV: “Qarabağda işlər necə gedir?”

## Qarabağı azad edən Lider onu həm də cənnətə çevirəcəkdir!

**Bu gün Azərbaycanda (bəlkə də dünyada) ən sıx, ən gərgin, çoxtərəfli qrafiklə işləyən dövlət başçısı cənab İlham Əliyevdir!**
**Bu, mübaliğə deyil!**
**Diqqətlə baxdıqda və dərindən maraqlandıqda bunu hər birimiz aydın görə bilərik.**

*Prezident cari məsələlərlə məşğul olur, qonaqları qəbul edir, onlayn və canlı görüşlər, konfranslar keçirir, açılışlar edir, kadr məsələlərinə vaxt ayırır, pandemiya tədbirlərini diqqətdə saxlayır, fərmanlar, sərəncamlar imzalayır, hələ kənardan görünməyən nə qədər məsələlərin və problemlərin yoluna qoyulmasında zəhmət çəkib vaxt sərf edir...*

*Ali Baş Komandan kimi çox ciddi, həm də məxfi xarakterli işlər görür və s.*

Daxili və xarici siyasət məsələlərində dövlət maraqlarının birmənalı şəkildə qorunması ilə bahəm, Qarabağın dirçəldilməsi də ön mövqedə saxlanılır.

Bir neçə gün əvvəl yeni elektrik yarımstansiyasının açılışında dövlət başçısının “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayevə ünvanladığı “Qarabağda işlər necə gedir?” sualı diqqət çəkdi.

**Əslində, bu sualı verməklə Prezident İlham Əliyev Qarabağda gedən işləri daim diqqətində saxladığını vurğulayırdı!**

**Bəli, Qarabağda işlərin necə getdiyini hər bir Azərbaycan vətəndaşı daim diqqətlə, həyəcanla izləyir, onun tezliklə başa çatmasını arzulayır!**

*Azərbaycanın dostlarının və hətta bizə dost münasibəti bəsləməyənlərin də bir gözü Qarabağdadır!*

*Dostlar xoş arzu və niyyətlərlə, düşmənlər paxıllıq və həsədlə!*

“Məcburi köçkün” adını “itirənlər” isə tezliklə doğma yurda qayıtmaq, isti yuva qurmaq intizarındadırlar!

**Qarabağ torpağını düşmən işğalından azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev “Qarabağı dirçəldərək cənnətə çevirəcəyik!” vədini verib!**

**Hamımız gözəl bilirik ki, bu belə də olacaqdır!**

**Prezidentimiz deyibsə, hökmən edəcəkdir!**

*Doğrudan da, Qarabağda işlər necə gedir?*

*Bakıdan Qarabağa baxanda, nə görürük?*

❖ ❖ ❖

**İlham Əliyev dəmir yumruğu ilə möcüzə yaradaraq otuz il işğalda qalan torpaqları 44 gündə azad etdi!**

**İlham Əliyev düşmən ordusunu məhv etdi, düşmənin belini qırdı.**

Əgər Rusiya araya girib ermənini əlimizdən almasaydı, nəfəsini tamamilə kəsəcəkdik!

Sonradan üstümüzə göndərdiyi təxribatçı-diversant dəstəsini də zərərsizləşdirərək həbsxanaya atmışıq. İndi ona-buna yalvara-yalvara qalıblar!

**Bəli, artıq, sözün həqiqi mənasında, Qarabağ Azərbaycandır!**

**Qarabağ bizimdir və əbədi bizim olacaqdır!**

*Daha “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi” yoxdur!*

*Daha “dağlıq” və “aran” Qarabağ yoxdur, vahid Qarabağdır!*

**Əlbəttə, Qarabağla bağlı gizli niyyətlər, boş xülyalar, qara planlar da mövcuddur!**

*Məsələn:*

- Ermənistandakılar qisas istəyilə alışıb yanırlar;

Xankəndini su yoluna döndərməklə niyyətlərindən əl çəkmədiklərini göstərir, beli sınmış ordularını yenidən ayağa qaldırmağa çalışırlar. Hətta orduda xidmətin yaş həddini artırmaqla qocalar hesabına onu birtəhər komplektləşdirməyə can atırlar...

Amma ...

**Unutmasınlar ki, dəmir yumruq hər an hazır vəziyyətdədir!**

**Bu dəfə heç kəs onları əlimizdən ala bilməyəcəkdir!**

*Ardı 3-cü səh.*

*Azərbaycan Prezidentinin bəyanatı Ermənistanda təşvişi daha da artırıb:*

## “Bitdi, İlham Əliyev Zəngəzuru da bizdən alır”

### Dövlətimizin başçısının tarixi torpaqlara qayıdışla bağlı verdiyi son mesajdan sonra ermənilər Paşinyanı səfər etdiyi bölgələrdən qovurlar




**44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tarixi qələbəsi ilə başa çatmaqla yanaşı, regionda yeni reallıqlar yaradıb.**

Bu reallığın əsas cəhətlərindən biri azərbaycanlıların Ermənistan ərazisində tarixi torpaqlarına qayıtmaq şansının yaranmasıdır.

*Ardı 3-cü səh.*

## Azərbaycan davamlı tərəqqiyə, Ermənistan isə sonsuz tənəzzülə köklənib

### Bunu Prezidentin iştirakı ilə açılan yeni enerji və sənaye obyektləri bir daha təsdiqləyir

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev aprelin 19-da Bakının Suraxanı rayonunda “Azərenerji” ASC-nin yenidən qurulan “Hövsan” yarımstansiyasının açılışı mərasimində iştirak etmiş, həm bu stansiyanı, həm də məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə “Maştağa” yarımstansiyasını işə salmışdır.

Əvvəlcə, onu qeyd edək ki, 45 il əvvəl tikilən “Hövsan” yarımstansiyası müasir səviyyədə yenidən qurulmuşdur. Nəticədə “Şimal” Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin ötürülmə keyfiyyəti artmış və bunun sayəsində Bakı və Abşeron yarımadasının, xüsusən də Suraxanı, Günəşli, Əhmədli ərazilərinin elektrik enerji təchizatı yaxşılaşmışdır.

*Ardı 5-ci səh.*

## Hacıqabul rayonunun Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On iki min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 aprel 2021-ci il*

## Hacıqabul şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Hacıqabul şəhərində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məktəb binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 aprel 2021-ci il*

◆ Jurnalist araşdırması

## Geri qaytarılmalı olan ƏDV niyə geri qayıtmır?

### Bu prosesin icrasında istehlakçıya hələ də süni problemlər yaradılır

**Artıq bir ilə yaxındır ki, ölkədə istehlakçılar neft və qaz məhsulları istisna olmaqla, aldıqları digər mallara görə ödənilmiş Əlavə Dəyər Vergisinin (ƏDV) müəyyən hissəsini geri ala bilərlər.**



Vergi Məcəlləsinə görə, fiziki şəxslər supermarket və digər pərakəndə ticarət obyektləri, restoran və kafelərdən alınmış mallara, göstərilmiş xidmətlərə görə nağdsız qaydada ödənilmiş ƏDV-nin 15, nağd qaydada ödənilmiş ƏDV-nin isə 10 faizini geri almaq hüququna malikdirlər.

*Ardı 4-cü səh.*

# YAP Sədrinin müavini İCAPP-ın tədbirində iştirak edib

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədov aprelin 21-də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (İCAPP) Daimi Komitəsinin 35-ci iclasında iştirak edib.




AZƏRTAC xəbər verir ki, videokonfrans formatında keçirilən iclasda açılış nitqi ilə çıxış edən Koreya Respublikasının xarici işlər naziri, İCAPP Daimi Komitəsinin həmsədri Çunq Eui-yonq İCAPP-ın fəaliyyətinə göstərdiyi fəal dəstəyə görə Yeni Azərbaycan Partiyasına xüsusi təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini Əli Əhmədov ötən il 44 günlük müharibə nəticəsində Azərbaycanın öz ərazilərini işğaldan azad etdiyini, bölgədə sülh və əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğulayıb. O, həmçinin bu ilin sonlarında Təhlükəsizlik və Əməkdaşlıq Naminə Xüsusi Konfransın keçirilməsi barədə YAP-ın təşəbbüsünün dəstəklənməsinə və İCAPP-ın iş planına salınmasına görə quruma təşəkkürünü bildirib. Pandemiya şəraitində qurumun fəaliyyətini yüksək qiymətləndirən YAP təmsilçisi sonda İCAPP üzvlərini Bakıda keçiriləcək tədbirdə fəal iştiraka dəvət edib.

# İndoneziya şirkətləri Azərbaycanın azad edilmiş ərazilərində aparılan işlərdə iştirak etmək arzusundadırlar

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, İndoneziya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Bəxtiyar Əliyev aprelin 21-də İndoneziyanın ölkəmizdəki səfiri Hildi Hamid ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Bəxtiyar Əliyev İndoneziyanın ölkəmizdəki səfiri Hildi Hamidə gələcək fəaliyyətində uğurlar arzulayıb. Azərbaycan ilə İndoneziya arasında mövcud olan dostluq münasibətlərindən, mənəvi yaxınlıqdan söz açan komitə sədri səfir Hildi Hamidin bu əlaqələrin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Milli Məclisin komitə sədri işğaldan azad edilmiş ərazilərdə ermənilərin törətdikləri vandalizm aktlarından söz açıb, vaxtilə özünün doğulub boya-başa çatdığı, indi isə dağıntıların miqyasına görə Azərbaycanın "Xirosiması" adlandırılan Ağdam şəhərindən bəhs edib. Bəxtiyar Əliyev işğal vaxtı İndoneziyanın Azərbaycanın beynəlxalq hüquqa və ədalətə əsaslanan haqlı mövqeyini, ərazi bütövlüyünü dəstəkləməsini məmnuniyyətlə qeyd edib. Azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərindən danışıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən Hildi Hamid səfir kimi fəaliyyətində iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib. Diplomat Azərbaycan Respublikasının erməni işğalından azad olunmuş ərazilərinə səfər edərək oradakı vəziyyətlə şəxsən tanış olmasından danışıb. O, Azərbaycanın azad edilmiş ərazilərdə həyata keçirdiyi işlərdən heyranlığını, İndoneziya şirkətlərinin bu işdə iştirak arzusunu ifadə edib.

Görüşdə parlamentlərarası əlaqələrin əhəmiyyəti, humanitar sahədə, təhsildə əməkdaşlıq, beynəlxalq qurumlarda birgə fəaliyyət və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələrinin onlayn təqdimatı




Aprelin 21-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələrinin onlayn təqdimat mərasimi keçirilib. Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş tədbirdə Təhsil Nazirliyindən, Milli Məclisdən, Azərbaycan Memarlar İttifaqından, ali təhsil müəssisələrindən qonaqlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, universitetin rektoru, professor Gülçöhrə Məmmədova qonaqlara layihə barədə ətraflı məlumat verib. Rektor qeyd edib ki, Memarlıq fakültəsində təhsil alan tələbələrin təşəbbüsü ilə ərsəyə gələn Şuşa şəhərinin şəhərsalma inkişafı və tarixi memarlıq irsinin bərpası layihəsi üzrə işlər bir il əvvəl başlayıb. "Tələbələrimiz və müəllimlərimiz layihə üzərində işə başlayanda Şuşa, eləcə də digər rayonlar hələ işğal altında idi. Amma biz inanırdıq ki, tezliklə o torpaqlar öz sahiblərinə qayıdacaq, biz bu layihələri orada gerçəkləşdirəcəyik. Bu gün çox sevinirik ki, arzumuza çatmışıq".

G.Məmmədova layihənin hazırlanmasında əsas məqsədin Azərbaycanın tarixi şəhəri olan Şuşanın nümunəsində tarixi şəhərlərin inkişafı və memarlıq irsinin qorunması, abidələrinin bərpasından ibarət olduğunu vurğulayıb. Eyni zamanda o, tezliklə Şuşa şəhərində tələbələrin təqdim etdiyi şəhərsalma strukturuna dair yeni inkişaf layihələri ilə əlverişli, müasir tələblərə uyğun yaşayışın bərpa olunacağına inamını ifadə edib.

Rektor diqqətə çatdırıb ki, təxminən bir il çəkən bu layihənin hazırlanması üçün tələbələr Şuşanın abidələri, infrastrukturu haqqında tarixi məlumat toplayıblar, arxivlərdə işləyiblər, mövcud arxiv sənədləri ilə tanış olublar. İki istiqamətdə hazırlanan layihələrin şəhərsalma strukturunun inkişafı üzərində işləyən tələbələrə AzMİU-nun dosenti, Əməkdar memar Yeganə Hacıyeva, abidələrin bərpası istiqaməti üzrə işləyən tələbələrə isə AzMİU-nun professoru, memarlıq doktoru Səbinə Hacıyeva rəhbərlik edib.

Sonra layihə mərasim iştirakçılarına təqdim olunub. Layihədə şəhərsalma strukturunun inkişafı istiqaməti üzrə tələbələrə rəhbərlik edən Y.Hacıyeva Şuşa şəhərinin 2020-2040-cı illər üzrə baş plan layihəsi barədə danışıb, tələbələrin iştirakı ilə görülən işlər izləyicilərə təqdim olunub. Bildirilib ki, birinci mərhələdə, əsasən, ictimai, yaşayış və qeyri-yaşayış zonaları, sənaye, istirahət və yaşıllıq əraziləri üzrə işlər görülüb. Sonrakı mərhələdə yeni yaşayış zonaları təklif olunub, şəhərin mövcud ərazisinin 2040-cı ilə qədər yeni sərhədləri ilə bərabər təyini, Şuşa üçün ekoturizm marşrutunun, ümumi yaşıllıq sahəsinin rekreasiya zonasının yenilənməsi, yeni tikililər üçün ərazilərin ayrılması, küçələrin şəhər ətrafı kateqoriyalarının bölünməsi, ayrılması, piyada turist marşrutlarının təyini və s. həyata keçirilib.

Memarlıq irsinin bərpası istiqaməti üzrə məlumat verən Səbinə Hacıyeva qeyd edib ki, ümumilikdə, Şuşada 165 tarixi abidə var, amma tələbələr onların bir qismi üzərində iş aparıblar. "Biz layihəyə başlayanda Şuşa şəhəri işğal altında idi, biz ora gedə bilmirdik. Tələbələr yalnız arxivlərdən əldə etdikləri məlumatlar, eskizlər əsasında işləyiblər. Şuşanın ayrı-ayrı memarlıq abidələrinin arxivlərdən eskizləri, cizgiləri, fotoşəkilləri və s. kimi məlumatlar götürülərək onların tarixi, memarlıq-dekorativ xüsusiyyətləri tədqiq edilib, internet resursları vasitəsilə indiki vəziyyəti araşdırılıb və eskiz-bərpa layihələri işlənib".

Sonra tələbələr Aşağı və Yuxarı Gövhər Ağa məscidi, Xan qızı Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Həsən bəy Vəzirovun və başqalarının ev-muzeyləri, hamam, karvansara və bulaqların bərpa-eskiz layihələrini təqdim ediblər. Bərpa layihələri təqdim edilən abidələrin 3 D görünüşü tələbələr tərəfindən işlənib.

Təqdimatın sonunda layihənin nəticəsi kimi tələbələr müasir kompüter proqramlarından istifadə edərək Şuşaya ilk gediş marşrutunu təqdim ediblər.

Mərasimdə təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin deputatları - Hicran Hüseynova, Aydın Mirzəzadə və Hikmət Babaoğlu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova tələbələrin təşəbbüsünü alqışlayaraq bu layihədə əməyi keçən müəllimlərə təşəkkür ediblər. Onlar görülən işləri yüksək qiymətləndiriblər, işğaldan azad olunmuş şəhər və kəndlərimizin yenidən qurulması, bərpası və inkişafı prosesində AzMİU-nun professor-müəllim, tələbə potensialından istifadənin vacibliyini vurğulayıblar.

# MDB PA-nın Sosial siyasət və insan hüquqları daimi komissiyasının iclası olub

Aprelin 21-də MDB PA-nın Sosial siyasət və insan hüquqları daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, komissiyanın sədri, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu, həmçinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin üzvü Nizami Səfərov iclasa sədrlik edib.

Videokonfransda "Pandemiya dövründə əmək miqrasiyasının qanunvericilik təminatı tədbirləri haqqında" birgə bəyanatın layihəsi təqdim edilib. Bildirilib ki, bu sənəd MDB PA-nın, Beynəlxalq Miqrasiya Təşkilatının Vyanadakı Regional ofisinin və Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bürosunun birgə layihəsidir.

Komissiyanın iclasında "Orqan donorluğu haqqında", "MDB-yə üzv dövlətlərdə HİV infeksiyasının qarşısının alınması və müalicəsi üçün xidmətlərə bərabər çıxışın təmin edilməsi haqqında" model qanun layihələrinə dair məruzələr dinlənilib və müzakirələr aparılıb. "Müəssisələr (təşkilatlar) müflis olduğu halda işçilərin tələblərinin qanunvericiliklə müdafiəsinin təmin olunması haqqında" tövsiyə layihəsinə münasibət bildirilib, təkliflər irəli sürülüb. "Sağlam həyat tərzi sahəsində sosial reklam haqqında" və "Rəqəmsal səhiyyə haqqında" model qanunların konsepsiya layihəsindən bəhs olunub.

Həmçinin ÜST-ün Avropa Regional Bürosu ilə MDB PA-nın birgə təşkil etdikləri "Səhiyyə xidmətlərinin universal əhatə dairəsi və dayanıqlı inkişaf məqsədləri" mövzusunda beynəlxalq konfransa hazırlığın gedişi müzakirə olunub.

Tədbirdə komissiyanın üzvü, Milli Məclisin deputatı Anatoliy Rafailov da iştirak edib.

# Rafael HÜSEYNOV: "Əsassız arqumentlərlə Ermənistanı müdafiə etməyə çalışanlar yaxşı olardı ki, dostlarını düz yola dəvət etsinlər"




Əvvəldən sessiyanın gündəliyində nəzərdə tutulmamış, amma erməni tərəfinin müxtəlif təsir imkanlarından istifadə edərək Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) plenar iclasına çıxarılacaq məruzələr sırasına sərbəst müzakirələr xətti ilə daxil edilməsinə nail olduğu hesabat "erməni hərbi əsirlər, digər əsirlər və köçkünlər" adlanırdı.

AZƏRTAC xəbər verir ki, ermənipərəst deputatları cəlb edərək, belə mövzunu müzakirəyə çıxaran və bundan Azərbaycan əleyhinə növbəti şər-böhtan vasitəsi kimi istifadə etməyə cəhd edən Ermənistan növbəti dəfə iflasa uğradı.

Çıxışını bu adda mövzunun müzakirəyə çıxarılmasının doğru olmadığı fikri ilə başlayan AŞ PA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov saxlananların ermənilərin iddia etdiyi kimi hərbi əsir deyil, cinayətkarlar olduğunu bildirərək dedi: "Əsir iki tərəf arasında gedən müharibədə qarşı tərəfin ələ keçirdiyi düşmən əsgəridir. Adətən, tərəflər arasında sülh müqaviləsi bağlanandan sonra daha hərbi əsir statusu bitir, işləmir. İşğaldan azad edilmiş Azərbaycan ərazisinə silahlı müdaxilə edən xarici vətəndaşın adı canidir, terroristdir. Canini, terroristi cidd-cəhdlə müdafiə etməyin adı nədir, məqsədi nədir?"

Rafael Hüseynov müharibədə əsir düşmüş bütün şəxslərin üçtərəfli müqavilə imzalanandan dərhal sonra qarşılıqlı olaraq qaytarıldığını dəlillərlə assambleya üzvlərinin diqqətinə çatdıraraq bildirib: "Birinci Qarabağ müharibəsində Azərbaycan tərəfdən itkin düşmüş sayılan 4000-dən artıq insan vardı. Bunlar elə əsir və girovlar deməkdir. Ermənistan birini də qaytarmadı. Son Qarabağ müharibəsində Azərbaycan Ermənistana 1500 əsgərin cəsədini qaytardı. 2020-ci ilin 10 noyabrında üçtərəfli müqavilə bağlanaraq döyüşlər rəsmən dayandırıldı. Bağlanmış müqaviləyə əsasən, əsirlər "hamının hamıya" prinsipi ilə dəyişdirildi. Azərbaycan Ermənistana 44 əsir verdi, Ermənistan Azərbaycana 14 nəfər. Müharibə bitəndən bir müddət sonra Azərbaycan ərazisinə silahlı müdaxilə edən, təxribatlar törədən cinayətkarlar artıq heç vəchlə hərbi əsir sayıla bilməz. Bu, o məqamdır ki, demaqogiya, söz oyunları keçmir. Beynəlxalq qanunlar, konvensiyalar var, biz də qərarlarımızı, rəylərimizi hamılıqla qəbul edilmiş həmin qanunlar əsasında çıxarmalıyıq. Beynəlxalq norma və qaydalarsa bu qəbildən olan şəxslərə ya hərbi cinayətkar deyir, ya da daha dəqiq onları terrorist adlandırır".

Ermənistanın növbəti saxtakarlıq edərək hərbi əsir kimi qələmə verdiklərinin, əslində, təxribatçı və terrorçular olması haqda Rafael Hüseynov təfərrüatları çatdıraraq deyib: "Saxlanılanların hamısı Ermənistanın Şirak vilayətindən Ermənistan silahlı qüvvələrində hərbi xidmət keçmək üçün çağırılıb və Azərbaycanın ərazilərində onun Silahlı Qüvvələrinin üzvlərinə və mülki əhalisinə qarşı diversiya və terror aktları törətmək məqsədilə bu ərazilərə yeridilib. Bu, rəsmi məlumatdır. Tutulan şəxslərin hamısı 2020-ci il 26 noyabr tarixindən, yəni Azərbaycan və Rusiya prezidentləri və Ermənistan baş nazirinin imzaladığı üçtərəfli bəyanatla əldə edilmiş atəşkəsin qüvvəyə minməsindən sonra Ermənistan tərəfindən Azərbaycan ərazilərinə göndərilib".

Deputat Rafael Hüseynov diqqətə çatdırıb ki, müharibə bitsə də, Ermənistanda Azərbaycana qarşı nifrət və kin siyasəti aparılır, revanşist çağırışlar səsləndirilir: "Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli birgə bəyanat ilə Ermənistan və Azərbaycan arasında 30 ildən bəri davam edən qarşıdurmaya son qoyuldu. Lakin təəssüf ki, bununla da erməni cəmiyyətində azərbaycanlılara qarşı düşmənçilik və nifrət sona çatmadı. Bu gün Ermənistanda Azərbaycanla barışıqdan və dinc yanaşı yaşamaqdan danışmağa cəsarət edən hər kəsə xain kimi baxılır və onlara həqarətlə "türk" deyirlər. Yaxınlaşma, əməkdaşlığa can atmaq əvəzinə isə məsuliyyətsiz və təhlükəli revanşizm və dözümsüzlük çağırışları dövlət səviyyəsində təbliğ olunur, təəssüf ki, bu mövqe Ermənistanda bütün siyasi spektrlərdə paylaşılır".

Son olaraq Rafael Hüseynov Avropa Şurasındakı erməni havadarlarına səslənərək onları cəfəng əsaslandırmalarla Ermənistanı cidd-cəhdlə müdafiə etməyə çalışmaqdansa öz dostlarına ağıl vermələrini tövsiyə edib: "Prezident İlham Əliyev bir neçə gün əvvəl Azərbaycanın Ermənistanla əhatəli sülh müqaviləsi bağlamağa hazır olduğunu, lakin Ermənistanın bundan yayındığını bildirib. Odur ki, əsassız arqumentlərlə haqsız Ermənistanı nəyin bahasına olursa-olsun müdafiə etməyə çalışanlar yaxşı olardı ki, dostlarını, nəhayət, düz yola dəvət etsinlər".

# Avronest PA-nın 9-cu sessiyası başa çatıb

**Aprelin 20-də onlayn formatda işini davam etdirən Avronest PA-nın plenar iclasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Azər Kərimli və nümayəndə heyətinin üzvləri Tural Gəncəliyev, Qüdrət Həsənquliyev, Rauf Əliyev, İltizam Yusifov, Məlahət İbrahimqızı, Hicran Hüseynova, Vüqar Bayramov, Nurlan Həsənov iştirak ediblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, plenar iclasda əvvəlcə 2019-cu il dekabrın 9-10-da Tbilisidə keçirilmiş 8-ci sessiyanın protokolu təsdiqlənib. Sonra Avronest PA-nın 9-cu sessiyası çərçivəsində qurumun komitələrində baxılmış məsələlərə dair həmməruzəçilərin təqdimatları dinlənilib.

İclasda COVID-19 pandemiyası bitəndən sonra Şərq tərəfdaşlığının dirçəlişi, dayanıqlılığı və demokratikləşmə perspektivləri mövzusunda debatlar aparılıb. Demokratik proseslərin möhkəmləndirilməsində siyasi partiyaların, vətəndaş cəmiyyətinin, ədalətli seçki mühitinin, eyni zamanda azad və plüralist KİV-in rolu barədə müzakirələrdə bir sıra təkliflər səslənib. Avropa İttifaqı və Şərq tərəfdaşlığı ölkələrinin təhsil və iqtisadiyyat sahələrində qarşılıqlı əlaqəsi təhlil olunub. Milli nümayəndə heyətlərinin üzvləri Avropada enerji siyasətinin möhkəmləndirilməsi imkanları və Şərq tərəfdaşlığı çərçivəsində enerji təhlükəsizliyinə təhdidlərin qarşısının alınması, eləcə də gündəlikdəki digər məsələlər barədə fikirlərini bölüşüblər.

Tədbirdə Şərq tərəfdaşlığı ölkələrində demokratikləşmə prosesləri, mövcud ictimai-siyasi vəziyyət, dayanıqlılığın və təhlükəsizliyin artırılması, həmçinin bölgədə gedən proseslərdə Avropa İttifaqının daha yaxından iştirakı barədə fikir və mülahizələr səsləndirilib. Müzakirələr zamanı Milli Məclisin deputatları Azər Kərimli və Hicran Hüseynova erməni deputatların Azərbaycanın əleyhinə səsləndirdikləri fikirlərə obyektiv reallıqdan çıxış edərək, konkret faktlara istinadən kəskin cavablar veriblər, erməni tərəfinin yalanlarını və böhtanlarını ifşa ediblər. Azərbaycan nümayəndə heyətinin rəhbəri Azər Kərimli bildirib ki, Avropa dövlətləri və institutları, o cümlədən ATƏT-in Minsk qrupu 30 il ərzində regionda mövcud olan münaqişəni sülh yolu ilə həll edə bilməyiblər. Hazırda biz bölgədəki qarşıdurmaya və nifrətə son qoyaraq yeni səhifə açırıq. Biz regionun gələcəyini qurmağa başlayırıq. Nəticədə Ermənistan da daxil olmaqla, regionun bütün ölkələri tərəqqi etmək imkanı qazanacaq. Təəssüf ki, bu baxımdan Ermənistan tərəfin müvafiq addımları müşahidə olunmur.

Azərbaycan nümayəndə heyətinin üzvü Hicran Hüseynova Şərq tərəfdaşlığı çərçivəsində hələ də ikili standartların müşahidə olunduğunu vurğulayıb. O, erməni tərəfinin əsassız ittihamlarına etiraz edərək bildirib ki, Azərbaycan əraziləri on illərlə ermənilər tərəfindən işğala məruz qalıb və indi Azərbaycan özünün zəbt olunmuş ərazilərini azad edib, qarşı tərəf bu faktla barışmalıdır.

Plenar iclasda aparılan müzakirələr başa çatdıqdan sonra gündəlikdəki məsələlərlə əlaqədar müvafiq qərarlar qəbul olunub. Bununla da Avronest Parlament Assambleyasının ikigünlük 9-cu növbəti sessiyası işini başa çatdırıb.

# Naxçıvan Qarnizonu qoşunlarında hazırlıq məşğələsi keçirilib

Naxçıvan Qarnizonu qoşunlarında hərbi hissə komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələsi keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, komandir hazırlığı məşğələsi komandirlərin və qərargah zabitlərinin yaranmış mürəkkəb şəraitdə döyüş tapşırığını vaxtında və dəqiq yerinə yetirmək bacarıqlarının təkmilləşdirilməsi məqsədi ilə icra olunub.

Səhra şəraitində təşkil edilmiş təlim yerlərində "Artilleriya divizionunun atış və atəşin idarə olunması", "Motoatıcı briqadanın ikinci eşelon taborunun müdafiə rayonunu tutması" və "Komanda məntəqəsində döyüş işinin təşkili qaydası" mövzularında məşğələlər keçirilib, zirehli tank texnikalarından praktiki atışlar nümayiş olunub. Məşğələlərin sonunda zabitlərin rəhbəredici sənədlərdən və hərbi topoqrafiyadan nəzəri bilikləri yoxlanılıb.

Yekunda bildirilib ki, məqbullar götürülən zaman hərbi hissə komandirləri və müavinləri komandir hazırlığından yüksək nəticə göstəriblər.



## Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi



# İLHAM ƏLİYEV: “Qarabağda işlər necə gedir?”

## Qarabağı azad edən Lider onu həm də cənnətə çevirəcəkdir!

Əvvəli 1-ci səh.



● Rusiya sülhməramlıları yalnız erməniləri geriyə qaytarmaq, onlara xidmət göstərmək, Laçın dəhlizi ilə gələn əcnəbi qonaqlarını və Ermənistan rəsmilərini qarşılayıb yola salmaqla məşğuldurlar. Hələ ki, bir nəfər də azərbaycanlı məcburi köçkün onların köməyi ilə Xocalıya, Xankəndiyə qaytarılmayıb, Ermənistandan minalanmış ərazilərin xəritəsi alınıb bizə verilməyib, 10 noyabr Bəyanatının sülhməramlılarla bağlı bəzi bəndləri havada qalıb!

Amma...

Biz I Qarabağ müharibəsindən əvvəl münaqişənin necə başlanmasını, necə inkişaf etdirilməsini unutmamışıq!

Xüsusi idarəetmə komitəsinin necə “fəaliyyət göstərməsi” də yaxşı yadımızdadır!

**Ən əsası Azərbaycan doxsanıncı illərin rəhbərsiz, ordusuz, xaos bataqlığında boğulan Azərbaycanı deyil!**

**Azərbaycanın qüdrətli rəhbəri və sərkərdəsi, güclü iqtisadiyyatı, qalib və mükəmməl ordusu, Türkiyə kimi dostu və qardaşı var!**

● ATƏT-in Minsk qrupu yenidən “nizamlama” missiyasına qayıtmaq istəyir. Müxtəlif səfərlər edir, bəyanatlar, açıqlamalar verir. Hətta onun keçmiş həmsədrlərindən biri olan Oqland necə fəaliyyət göstərdikləri barədə ABŞ KİV-ində çıxış da etmişdi...

Amma...

**ATƏT-in necə səmərəsiz, boş və mənasız işləməsini, necə qeyri - obyektiv mövqe sərgiləməsini, bizə hansı reallıqla hesablaşmağımızı tövsiyə etməsini yaddan çıxarmamışıq!**

**Bir də əgər münaqişə yoxdursa, ATƏT nəyi çözəcək?**

*Qoy əvvəlcə ermənilərin başına ağıl qoyaraq onlara yeni reallıqla hesablaşmalı olduqlarını izah etsin, bacarırsa, mina xəritələrini alıb gətirsin, bu dəfə azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtmalarına kömək göstərsin.*

*Sülhü belə yaratsın!*

● Dünya erməniliyi hələ də saxta soyqırımı iddiasından əl çəkməyib və növbəti dəfə 24 apreli gözləyir. Gözləyə-gözləyə özlərinin törətdikləri Xocalı soyqırımını da xatırlasınlar. Ermənistandan qaçan ermənilərin, illər boyu göndərdikləri pulların Ermənistanın başçıları tərəfindən mənimsənilməsinin dərdini çəksinlər.

Amma...

**II Qarabağ müharibəsində İlham Əliyevin dünya erməniliyinə də qalib gəlməsinin xəcalətini də çəksinlər. Özləri ABŞ-da, Fransada, Rusiyada şellənərək ağılsız millətlərini Qarabağda qırğına verməsinlər. Cırtdan Ermənistanın nəhəng Türkiyəyə qarşı ərazi və “soyqırımı” iddiasının gülünclüyünü və mənasızlığını da dərk etsinlər.**

Sonda daha bir xatırlatma:

Suda boğulmuş, yaxud qəza nəticəsində ürəyi dayanmış adamın ağzına üfürməklə ürəyini təzədən işə salmaq mümkün olur!

*Erməninin xəstəliyi xronikidir, sağalmazdır!*

*O, “böyük Ermənistan” xülyasından, faşist mərəzindən canını tapşırıb.*

*Ağzına üfürməklə nə ordusunu, nə də özünü diriltmək mümkün deyil!*

**Ağlınızı başınıza yığın!**

**Dəmir yumruğun mövcudluğunu da heç zaman yaddan çıxarmayın!**

❖ ❖ ❖

Bu gün Qarabağda o qədər geniş, vüsətli və planlı qaydada işlər gedir ki, geniş danışsan, bir kitab olar!

Əvvəlcə qısa şəkildə xatırladaq.

Bu gün Qarabağda nəyin, nə vaxt və kim tərəfindən icra ediləcəyi dəqiqləşib.

Torpaqların minalardan təmizlənməsi müəyyən qədər əngəl yaratsa da, iş elə qurulub ki, boşdayanma, gözləmə halları yoxdur!

**Prezident tapşırıqları ardıcıllıqla, yubanmadan yerinə yetirilir:**

● Ermənistanla sərhədlərin demarkasiyası və delimitasiyası başa çatmaqdadır;

● Azad olunmuş ərazilərə qayıtmış sərhəd xidməti yeni tikilən binalarda yerləşdirilir, xidmətlərini sayıqlıqla davam etdirirlər;

● Yeni hərbi şəhərciklər yaradılır, Azərbaycan Ordusu Qarabağı etibarlı şəkildə qoruyur;

● “Zəfər” yolunun çəkilişi uğurla və sürətlə davam edir;

● beynəlxalq aeroportda tikinti işləri bir an dayanmır;

● dəmir yolunun yenidən qurulması da qrafik üzrə aparılır;

● ərazidəki su mənbələri yoxlanılır, istismara hazırlanır;

● elektrik enerjisi ilə etibarlı təminat məqsədilə yeni elektrik yarımstansiyaları tikilərək istismara buraxılır;

● yeni əkinlərə aqrotexniki qaydada xidmət göstərilir;

● layihələrin hazırlanması prosesi sürətləndirilir və s.

*Bunlardan əlavə, Prezidentin Şuşaya səfərləri zamanı verdiyi tapşırıqlar vaxtında yerinə yetirilir. Artıq Şuşa etibarlı şəkildə içməli su ilə təmin edilir, fasiləsiz elektrik enerjisi verilir, bərpa işləri uğurla davam edir.*

**Hamı böyük sevinc və sevgi ilə cənab İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycanın mədəniyyət paytaxtına gəlişini səbirsizliklə gözləyir və uğurla keçəcəyinə inanır.**

Əlbəttə, Qarabağda görüləsi işlər çoxdur və genişdir.

Ən yaxşısı budur ki, Qarabağı yenidən bizə qaytaran, onun dirçəldilməsi üçün möhtəşəm layihələr hazırlatdıran, maliyyə vəsaiti ayıran, dostların köməyindən istifadə edən KİŞİNİN dediklərini bir daha diqqətə çəkək.

**Prezident İlham Əliyev aprelin 13-də ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda iştirakçılardan birinin bu məsələ ilə bağlı sualını belə cavablandırmışdı:**

*“Biz Azərbaycan üçün ortamüddətli və uzunmüddətli inkişaf strategiyasını faktiki olaraq müharibədən əvvəl işləyib hazırlamışdıq. Əlbəttə ki, ərazilərin işğaldan azad edilməsi əlavə imkanlar verəcək. Çünki ərazilərin bərpası çoxlu resurs tələb edəcək. Lakin eyni zamanda bu resurslar Azərbaycanda sərf olunacaq. Onlar biznesi stimullaşdıracaq, iqtisadiyyatımızın tikinti sektorunu stimullaşdıracaq, yeni iş yerləri yaradacaq, imkanlar yaradacaq, kənd təsərrüfatına əlavə dəyər qatacaq. Bu səbəbdən də indi bizim müəyyən mənada iki inkişaf proqramımız var. Birincisi, bizim hər il qəbul etdiyimiz illik inkişaf proqramı və həmçinin 2030-cu ilədək inkişaf proqramı. İkincisi, Qarabağın bərpası üçün inkişaf proqramıdır ki, hazırda başlanğıc mərhələsindədir. Hazırda bizim hökumət strukturlarımız ikisi arasında birləşmə və ya koordinasiya üzərində işləyir ki, eyni məqsəd üçün iki dəfə xərc çəkilməsin. Bu məqsədlə hazırda biz işğaldan azad edilmiş ərazilərdə tamamilə yeni idarəçilik modelini təqdim edirik. Prezident hakimiyyətinin, Prezident Administrasiyasının fərqli idarəçilik modeli olacaq və inkişafa çox müasir yanaşma olacaq, təkcə bərpa zamanı deyil, həm də bərpadan sonra. Ona görə də hazırda biz Ermənistan tərəfindən qanunsuz istismar olunmuş bütün resurslarımızı qiymətləndiririk. Həmin ərazilərdə mədənçilik üçün böyük potensial var. Yeri gəlmişkən, biz işğaldan azad edilmiş ərazilərdə mis və qızıl resurslarımızı qanunsuz şəkildə istismar etmiş bəzi dırnaqarası iş adamlarına qarşı artıq qanuni prosedurlara başlamışıq. Bərpa olunan enerji, xüsusilə külək enerjisi üçün nəhəng potensial var. İşğaldan azad edilmiş ərazilərin bəzi yerlərində, məsələn, Laçında, Kəlbəcərdə külək enerjisi üçün nəhəng potensial var. Cəbrayılda, Zəngilanda günəş enerjisi və su üçün nəhəng potensial var. Laçın və Kəlbəcəri azad edəndən sonra biz əsas su ehtiyatlarımıza çıxış əldə etmişik. Çünki Qarabağdakı erməni əhalisinin istifadə etdiyi su ehtiyatlarımızın əksər hissəsi öz mənbəyini oradan alır. Hazırda biz ermənilərin müharibə bitəndən sonra Kəlbəcəri tərk edənədək dağıtdığı 12 su elektrik stansiyasının bərpası prosesindəyik. Beləliklə, 15 gün ərzində onlar 12 su elektrik stansiyasını dağıdıblar. Bu da onların hisslərini və siyasətini nümayiş etdirir. Sözsüz ki, biz həmin ərazilərdə xüsusi yaşayış standartları yaratmaq istəyirik, çünki oraya qayıdacaq insanlar 30 il əziyyət çəkiblər. Onların layiqli həyata ehtiyacı var. Ona görə də “ağıllı” kənd üzrə ilk pilot layihəyə artıq başlanılıb, şəhər planlaşdırılmasına başlanılıb. Beləliklə, Qarabağ iqtisadiyyatımızın qeyri-enerji sektorunda, həmçinin nəqliyyatda böyük həcmdə ümumi daxili məhsul istehsal edəcək. Üç hava limanı ilə bağlı proses artıq başlayıb. Bir hava limanında işlər artıq başlayıb. Dəmir yolu əlaqələri. Yerləşməyini və qonşulara yaxınlığını nəzərə alaraq Zəngilan mühüm nəqliyyat və logistik hab ola bilər”.*

**Əbədi olaraq Azərbaycana qaytarılan Qarabağ bir neçə ildən sonra dirçəldiləcək, məskunlaşdırılacaq, insanların xoşbəxt və firavan yaşadığı cənnətməkana çevriləcəkdir!**

**Bu həm də xalqımızın ən böyük arzusu və xilaskar İlham Əliyevin qarşıya qoyduğu real vəzifədir!**

**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**

---

*Azərbaycan Prezidentinin bəyanatı Ermənistanda təşvişi daha da artırıb:*

# “Bitdi, İlham Əliyev Zəngəzuru da bizdən alır”

## Dövlətimizin başçısının tarixi torpaqlara qayıdışla bağlı verdiyi son mesajdan sonra ermənilər Paşinyanı səfər etdiyi bölgələrdən qovurlar

Əvvəli 1-ci səh.

Bu istiqamətdə ən mühüm məsələlərdən biri də Zəngəzur dəhlizi ilə bağlıdır. Bu ölkədə bəzi qüvvələrin etirazlarına baxmayaraq, Zəngəzur dəhlizi yaxın tezlikdə yaranacaq. Prezident İlham Əliyev bildirib ki, Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir: “Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik... Beləliklə, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır”.

### Böyük xof

Ermənilər bütün bunları ciddi faciə kimi qarşılayırlar. Erməni ekspert Hayk Manasyan bu xüsusda bildirir: “Erməni xalqının əmin olması üçün 44 günlük müharibə səhnələşdirildi, burada biz məğlub olduq, torpaqlar verildi, məcburən sülhməramlı daxil oldu və bizi xilas etdi, məcburən Zəngəzurdan yol vəd etdik, bu yol bizim yox, rus FTX-sinin, yəni Rusiyanın olacaq. Bu versiya barədə həm təsdiq edən, həm də şübhə altına götürən arqumentlər səsləndirmək olar”.

Ölkənin keçmiş müdafiə naziri, general-polkovnik Seyran Ohanyan isə qeyd edir: “Əminəm ki, əsasən Zəngəzuru, Mehrini, Sisianı əhatə edən yolların blokadadan çıxarılması gələcəkdə Ermənistanın və Qarabağın dərin blokadasına gətirib çıxaracaq”. Onun sözlərinə görə, Ermənistana iqtisadi cəhətdən təzyiq göstəriləcək: “İqtisadi cəhətdən bizə təzyiq göstərəcəklər, bu ərazinin demoqrafik mənzərəsi də dəyişəcək, sadə desək, türklər Zəngəzuru doldurmağa gələcəklər və ölkəmiz üçün çox pis vəziyyət yaranacaq”.

Ermənistan baş nazirinin keçmiş müavini Armen Gevorqyan özünün “Telegram” kanalında yazıb ki, İlham Əliyevin Nikolun Sünikə gizli səfəri fonunda Zəngəzurla bağlı son açıqlamaları geridönməz bir prosesin başlanğıcıdır. Söhbət milli suverenliyin itirilməsinin başlanğıcından gedir. O daha sonra bunları qeyd edib: “Suverenlik yalnız ərazi cəhətdən deyil, həm də Ermənistanın düşmənlərinin təcavüzkar bəyanatlarına mütənasib reaksiya vermədiyi zaman pozula bilər. Əminəm ki, Ermənistan xarici işlər nazirliyinin dünənki açıqlamasından sonra özümüzü daha inamlı hiss etmədik və Sünik sakinlərinin həyatı daha təhlükəsiz hala gəlmədi”.

“4rd.am” saytı yazır ki, İlham Əliyevin Zəngəzurla bağlı son bəyanatından sonra Paşinyanla yanaşı, ABŞ-ın Ermənistandakı səfiri də Sünikdə olub: “Nikol Paşinyan gözlənilmədən Sünikə gedib, gecə yarısı Qafana gələcək. Sünikdə bu ziyarət barədə heç kimə məlumat verilməyib. İnsanlar burada təşviş içindədirlər və fərqli fərziyələr irəli sürürlər. Onlardan biri də Paşinyanın sərhəddə gecə saatlarında görüş keçirməyə hazırlaşmasıdır. Maraqlıdır ki, “təsadüf” nəticəsində prezident Armen Sarkisyan da artıq bir neçə gündür Sünikdədir. Dünəndən bəri ABŞ səfiri Linn Treysi də Sünikə gəlib. O, dünən Sisianın meri ilə görüşüb və müharibədən sonrakı dövrdə buradakı insanların durumu ilə maraqlanıb. Sünikdə sakinlər belə hesab edirlər ki, Ermənistan rəhbərləri ilə ABŞ səfirinin eyni vaxtda bu həssas bölgədə peyda olması təsadüfi deyil. Onların bu ərazilərə gözlənilməz səfərlərinin arxasında hansısa arzuolunmaz maraqlar dayanır”.

### Paşinyan canını güclə qurtardı

Bu yanaşmalar fonunda Ermənistanın baş naziri Nikol Paşinyanın Zəngəzura səfəri qalamaqallı olub. Belə ki, sakinlər baş nazirin vilayətə səfərinə etiraz ediblər. Onlar “Nikol satqındır!” şüarını söyləyərək, Paşinyanın Zəngəzuru tərk etməsini tələb ediblər. Hadisə zamanı Paşinyanın mühafizəçisinin paltarı cırılıb. Etirazçılar Paşinyanı müşayiət edənlərə və baş nazirin avtomobilinə hücum ediblər. Nikol Paşinyanın təhlükəsizliyini təmin edən Milli Təhlükəsizlik Xidməti və polisin 500 maskalı xüsusi təyinatlıları hücuma müqavimət göstərməyərək avtomobilə minib, Paşinyanla birlikdə şəhəri tərk ediblər. Bildirilib ki, hadisə nəticəsində dövlət mühafizə xidmətinin başçısı Sarkis Ohanesyanın paltarı cırılıb. Beləliklə, baş nazirin regiona planlaşdırdığı səfəri baş tutmayıb.

Qeyd edək ki, Nikol Paşinyan aprelin 20-də Zəngəzur vilayətinin polis rəisini, Gorus və Qafanın polis rəisi müavinlərini gözlənilmədən işdən azad edib. Erməni siyasi ekspert Armine Adibekyan isə bu fonda bildirir ki, Azərbaycan Zəngəzura, həmçinin Göyçə gölü hövzəsinə, İrəvanə, Tavuşun Ermənistanla Gürcüstanı bağlayan hissəsinə də qayıdacaq: “Azərbaycanlılar Ermənistanı “Lesoto”ya (4 tərəfdən Cənubi Afrika Respublikası ilə əhatə olunmuş dövlət) çevirmək istəyirlər. Bu, Ermənistanın bədbəxt gələcəyidir, Nikol Paşinyan öz komandası ilə bizi buna aparır”.

Qeyd edək ki, Azərbaycan Ermənistan da daxil olmaqla heç bir ölkəyə qarşı ərazi iddiası irəli sürmür və Zəngəzurdan keçməklə Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək dəmir yolunun çəkilişi, ümumiyyətlə, Naxçıvan dəhlizinin yaradılması 10 noyabr Bəyanatında xüsusi müddəa ilə təsbit edilib.

### “Əliyevin dünənki bəyanatından sonra Paşinyan qorxuya düşüb”

Sünik rayon Şurnux icmasının rəhbəri Akob Arsakyan deyir ki, baş nazir bu bölgəyə səfər zamanı iki evi gəzdi, maşına mindi və uzaqlaşdı. Bildirib ki, sakinlərlə görüşməyə ehtiyac olsaydı, iki gün öncədən gəlişi barədə məlumat verərdi: “Azərbaycan Prezidenti Əliyevin dünənki bəyanatından sonra qorxuya düşüb, gecə ilə bura gəlməyin mənası nədir axı? Niyə günortadan sonra gəlmədin? Mənə deyirlər: niyə gəlmirsən, cəmiyyətin başçısı deyilsən? Cavab verirəm, cəmiyyətin lideriyəm və o kimdir? Niyə məni görməzdən gələn birinin arxasınca qaçmalıyam? Mən bu kəndin inzibati rəhbəriyəm”.

“Instagram” istifadəçilərindən Artur Qasparyan yazır ki, artıq Bakıda belə fikir formalaşdırılır ki, Ermənistan Azərbaycanın tarixi ərazilərində yaradılıb: “İlham Əliyevin son bəyanatlarında açıq bildirilir ki, xalq Ermənistanın tarixi Azərbaycan torpaqları üzərində qurulduğunu heç vaxt unutmamalıdır. Bu istiqamətdə işlər aparılır. Bu gün artıq hədəf Zəngəzurdur. Bitdi, İlham Əliyev Zəngəzuru da bizdən alır. Azərbaycanlıları bu mənada tezliklə Ermənistanda görməkdən təəccüblənmək lazım deyil”.

### “Əliyev Zəngəzura da qayıdır”

“Facebook” sosial şəbəkəsində çoxlu sayda izləyicisi olan səhifələr “Əliyev Zəngəzura da qayıdır” xəbərini paylaşaraq “Azərbaycanın getdikcə güclənməsi Ermənistan üçün təhlükəli sayıla bilərmi” sualını ünvanlayıblar. Bir çox izləyici bu paylaşmanın altında rəylər yazaraq qorxmadan, çəkinmədən müstəqil şəkildə fikirlərini ifadə ediblər. Onların sırasında müəllim, həkim, iqtisadçı, mühəndis, biznesmen, usta, idmançı rəylərinə belə rast gəlmək mümkündür.

İxtisasca iqtisadçı olan Stepan Qriqoryan yazır: “Acı həqiqət olsa da, demək lazımdır ki, İlham Əliyev yenə Paşinyanı qorxuya salıb. Hər zaman bizim rəhbərdən çox öndə olduğunu göstərə bilib. Azərbaycan Prezidenti hər gün müxtəlif bəyanatlar verir, bizimki də qorxudan qaçmağa yer axtarır. Hələ üstəlik getdiyi şəhərlərdən, təzəlikcə Sünikdən də qovublar. Acı mənzərədir”.

Robert Mkrtçyan adlı biri isə xəbər agentliyinin “Facebook” sosial şəbəkəsində “İlham Əliyev Zəngəzura qayıdışın anonsunu verdi” sorğusunda maraqlı rəyi ilə çoxlu bəyənmələrə səbəb olub: “İlham Əliyev xalqın bütün arzularını gerçəkləşdirir. Dünən Qarabağı aldı, bu gün Zəngəzuru istəyir. Əlvida, Zəngəzur!”

### “Paşinyanın Sünikdə tamaşası anşlaqsız keçdi”

Səhifəsində stomatoloq olduğu görünən Henrixin paylaşımı bəzilərinin etirazına səbəb olsa da, bir çoxlarının bəyənmələri ilə nəticələnib: “Biz özümüzə sual verməliyik: Qarabağ biz ermənilərin nəyinə lazım idi? Bir xeyir belə görmədik. Bu gün o torpaqlar yoxdur, nəsə dəyişib? Əksinə, həmişə ziyanını çəkmişik. Paşinyanın siyasəti bu gün Ermənistanı hər şeydən məhrum edib. Düşmən olsa da, düzünü demək lazımdır. Azərbaycan inkişafda, biz isə geriləməkdəyik. Lənət olsun belə rəhbərə, bu cür yaşayışa...”.

Lali Petorysna adlı birinin “Twitter” sosial şəbəkəsindəki paylaşımı da maraqla qarşılanıb: “Acı reallıq olsa da, qəbul edək ki, Paşinyanın Sünikdə, Qafanda tamaşası anşlaqsız keçdi. Döyülməkdən canını güclə qurtardı. Onun aktyorluğuna yalnız Ermənistanda biz zavallı insanlar inana bilərik. Gələcəyi olmayan ölkədə ümidlə yaşamaq... Heç bir ölkəyə belə rəhbər arzulamıram”.

Seyran Orikyan adlı biri isə “Facebook”da paylaşılan xəbərlərə yazdığı maraqlı rəyi ilə diqqət çəkib: “Bizim nə vaxt normal bir prezidentimiz olub ki, indi də ola. Danışanda dilləri topuq vurur. Paşinyan Sünkə hansı üzlə gedib axı? Əliyevin Zəngəzurla bağlı çıxışından sonra gedib orada nədən danışacaq? Gündən-günə “inkişaf edən” Ermənistandan? Yalan danışmaq üzrə dünya birincisi olan Paşinyan bilməli idi ki, İlham Əliyev son bəyanatı ilə “möhür” vurub. Düşmən olsa da, düzünü deyək. Axı, o, bunu bacarır. Bunu mən adi mebel ustası bilirəm, Nikol bilmir?”

Zəngəzur dəhlizi ilə bağlı Ermənistanda səslənən fikirlərə və nümayiş etdirilən fərqli mövqelərə baxmayaraq, onun reallaşması mütləqdir. Bunu şərtləndirən əsas səbəblər Azərbaycanın iradəsi, Ermənistanın müvafiq öhdəlikləridir. Dəhlizin reallaşması bütün bölgə ölkələrinə mənfəət gətirəcəyindən regionda davamlı sülhə töhfə hesab edilir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Daha 12 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib





**Ağır yaralanan daha 12 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib.**



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, həmin qazilərimiz Ələkbərov İlkin Elçin oğlu, Atakişiyev Yusif Fariz oğlu, Kazımov Kənan Çinar oğlu, Eyvazov Səbuhi Rahim oğlu, Seyfullayev Havil Səyədullah oğlu, Osmanov Zamir Şakir oğlu, Quliyev Şahmar Anar oğlu, Abdullayev Pərvin Dövlət oğlu, Əliyev Arzu Könül oğlu, Məmmədkərimov Nicat Əfsun oğlu, Musayev Bəhman Natiq oğlu, Hüseynov Ülvi Məsum oğludur. "YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək. "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Allah qazilərimizə şəfa versin! Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.

Xatırladaq ki, fond tərəfindən bundan öncə 51 qazimiz müalicə üçün Türkiyəyə göndərilmişdi. Onlardan 7-sinin müalicə proseduru artıq uğurla yekunlaşıb və Vətənə qayıdıblar. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

# *Leyla ABDULLAYEVA:* "Ermənistan XİN eşitdiklərini istədiyi şəkildə yozaraq təqdim etmək istəyirsə, bu artıq onların mənfur niyyətinin göstəricisidir"

Azərbaycan Respublikasının Prezidenti hər zaman olduğu kimi, fikirlərini kifayət qədər aydın və konkret şəkildə ifadə edib. Əgər Ermənistan XİN eşitdiklərini istədiyi şəkildə yozaraq təqdim etmək istəyirsə, bu artıq onların mənfur niyyətinin göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan XİN-in Azərbaycan Respublikasının Prezidentinin Ermənistana qarşı güc tətbiq etmək təhdidi ilə çıxış etdiyini iddia edən şərh ilə bağlı KİV-in sualına cavabında bildirib.

Leyla Abdullayeva deyib: "Dövlətimizin başçısının fikirlərini təfsir etmək istəyənlərin diqqətinə çatdırmaq istərdik ki, Azərbaycan Prezidenti 20 aprel tarixli müsahibəsində Azərbaycana qarşı Ermənistanda baş qaldıra biləcək revanşizmdən və ərazi bütövlüyümüzə ola biləcək təhdidlərdən bəhs edib və "əgər mümkün təhdidi təsbit etsək, onu məhv edəcəyik... çünki bu, milli müdafiədir, milli təhlükəsizlik məsələsidir", - deyə vurğulayıb. Bu isə Ermənistan XİN-in iddia etdiyi kimi, Ermənistanın ərazi bütövlüyünə təhdid deyil, əksinə, Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə ola biləcək hər hansı təhdidi cavablandırmaq qətiyyətimizin göstəricisidir.

Xatırlatmaq istərdim ki, dövlət başçısı müsahibəsində eyni zamanda Azərbaycanın əməkdaşlığa hazır olduğunu söyləyib, Ermənistanın azərbaycanlılara qarşı dövlət səviyyəsində törətdiyi soyqırımı və tarixi, mədəni, dini abidələrimizin dağıdılmasına rəğmən, bizim gələcəyə baxmalı olduğumuzu vurğulayıb.

Dəfələrlə və ən yüksək səviyyədə bəyan edildiyi kimi, Azərbaycan beynəlxalq hüququn prinsipləri, xüsusilə də dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında Ermənistanla münasibətlərin normallaşdırılmasına hazırdır. 2020-ci il noyabrın 10-da və 2021-ci il yanvarın 11-də imzalanmış üçtərəfli bəyanatların icrası da elə məhz buna xidmət edir. Ermənistan isə, təəssüf ki, üçtərəfli Bəyanatın icrası əvəzinə, yalan və iftira dolu fikirləri ilə həm öz əhalisini zəhərləyir, həm də beynəlxalq ictimaiyyəti yanıltmağa çalışır".

# İsmayıllıda 48 ailəyə yeni mənzilin açarları təqdim olunub

İsmayıllı şəhərindəki Xurşidbanu Natəvan küçəsində yeni tikilən 48 mənzilli dördmərtəbəli ictimai yaşayış binasında yerləşən mənzillərin açarları aprelin 21-də sahiblərinə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, yaşayış binası Prezident İlham Əliyevin 2018-ci il 27 avqust tarixli Sərəncamına əsasən inşa edilib. Bina şəhərin Mübariz Orucov küçəsində yerləşən birmərtəbəli, çoxmənzilli dörd bina, Heydər Əliyev prospektində isə ikimərtəbəli, çoxmənzilli üç bina olmaqla, ötən əsrin ortalarında tikilən istismar müddəti başa çatan binalarda yaşayan sakinlər üçün nəzərdə tutulmuşdu.

Karantin qaydaları gözlənilməklə yeni mənzillərin açarlarının təqdim olunma mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı Nahid Bağırov COVID-19 təhlükəsi ilə əlaqədar tətbiq olunan karantin rejiminin iqtisadiyyatımıza vurduğu zərərə, ölkəmizin tarixi Qələbə ilə başa çatan Vətən müharibəsindən yeni çıxmasına baxmayaraq, İsmayıllı rayonunda da nəzərdə tutulan sosial layihələrin uğurla davam etdirildiyini bildirib. Vurğulayıb ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində bu gün nəinki imtiyazlı ailələrin, sadə vətəndaşların da mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. İstifadəyə verilən yeni ictimai yaşayış binası məhz bu qayğının parlaq nəticəsidir.

Yeni mənzil alan ailə başçıları dövlət başçısının onlara göstərdiyi diqqətə görə minnətdarlıqlarını bildiriblər. Yeni mənzilin açarını yenicə alan Nərgiz Fərzəliyeva deyib: "Ailəmizin 4 üzvü var. Oğlum rəhmətə gedib, gəlinim və 2 nəvəmlə yaşadığım mənzilin şəraiti çox pis idi. Prezidentimizə ailəmiz adından çox-çox minnətdaram. Bu gün yeni mənzilə köçürük".

Qeyd edək ki, iki blokdan ibarət yeni binaya köçən sakinlərə əvvəlki yaşadıqları mənzillərin kvadratmetrindən çox sahəsi olan mənzillər verilib. Bina sanitar qovşaqlarla, elektrik enerjisi və təbii qazla təmin edilib.

İctimai yaşayış evi "İsmayıllı Tikinti-27" ASC tərəfindən inşa olunub.

# Koronavirusa 2075 nəfər yoluxub




Azərbaycan Respublikasında koronavirus infeksiyasından 2480 nəfər müalicə olunaraq sağalıb, 2075 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 32 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 305 min 933 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 269 min 965 nəfər müalicə olunaraq sağalıb, 4235 nəfər vəfat edib. Aktiv xəstə sayı 31733 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 141 min 335 test aparılıb. Dünənki test sayı isə 12679-dur.

# Gün ərzində Azərbaycanda koronavirusa qarşı 14 min 680 doza vaksin vurulub




Gün ərzində Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 14 min 680 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 9459, ikinci mərhələ üzrə peyvənd vurulanların sayı 5221 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının sayı 1 milyon 366 min 890-a bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 908 min 672, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 458 min 218 nəfərdir.


## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 30 mart 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə "Bakı Metropoliteni" QSC-nin müxtəlif obyektlərində yaşıllaşdırma işlərinin satın alınmasına dair açıq tender (elektron) üsulu ilə müsabiqə keçirilmiş və fiziki şəxs Rüstəmov Elşən Fərhad oğlu qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 132 420,00 manat (bir yüz otuz iki min dörd yüz iyirmi manat 00 qəpik) manat (ƏDV daxil) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


Jurnalist araşdırması

# Geri qaytarılmalı olan ƏDV niyə geri qayıtmır?

## Bu prosesin icrasında istehlakçıya hələ də süni problemlər yaradılır

*Əvvəli 1-ci səh.*

### Problemi kim və niyə yaradır?

Lakin görünən odur ki, istehlakçıların ƏDV-ni geri alması heç də asan başa gəlmir. Bir çox hallarda ƏDV çeki alıcıya alış üçün ödənilən qəbzlə birlikdə verilmir, alıcı ƏDV çekini özü istəməsə, qarşı tərəf onu istehlakçıya verməyə qətiyyən maraq göstərmir, onun bu istəyini hətta narazılıqla qarşılayır. Bəzən ƏDV-nin çekini istəyən istehlakçı bunu birbaşa kassirdən almalı olduğu halda, kassir tərəfindən müştəri xidmətlərinə yönəldilir. Bu, istehlakçının hüquqlarını pozmaqla yanaşı, onun üçün vaxt itkisinin yaranmasına da səbəb olur.

Çekin keyfiyyətsizliyi və oradakı məlumatların bilərəkdən yanlış göstərilməsi də istehlakçı üçün ƏDV-nin geri qaytarılmasına imkan vermir. Bəzi hallarda isə çeklərdə 12 simvollu fiskal ID nömrəsi və QR kod o qədər keyfiyyətsiz şəkildə qeyd edilir ki, alıcı bu məlumatları sistemə ya çox çətinliklə yükləyir, ya da yüklənməsi, ümumiyyətlə baş tutmur.

Digər problem odur ki, böyük ərzaq marketlərində ƏDV çekini az və ya çox dərəcədə almağa nail olsaq da, geyim mağazalarında bu, çox zaman qeyri-mümkün olur. Sadələşdirilmiş vergi ödəyicisi olduğunu əsas gətirən bir çox geyim mağazaları istehlakçıya ƏDV çeki verməkdən imtina edirlər. Maraqlıdır ki, vitrinlərinə qoyduğu geyimlərinin hər birinin qiymətinin minimum 100-150 manat olduğu, dövriyyəsi kifayət qədər yüksək olan belə hüquqi şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olması nə dərəcədə düzgündür?!

### Sistem uğurla fəaliyyət göstərirsə, onda problem nədədir?

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti iddia edir ki, sistem uğurla fəaliyyət göstərir. Lakin buna baxmayaraq, rast gəlinən əsas narazılıqlardan biri odur ki, bəzən portala daxil edilmiş bir sıra müraciətlərə imtina cavabı verilir:

"Məsələ burasındadır ki, bəzən portala böyük məbləğlərdə çeklər daxil edilir. Belə çeklər vergi orqanlarının baza məlumatları üzrə yoxlanılır. Vergi Məcəlləsində nəzarət-kassa aparatının çeklərindəki məlumatlarla bağlı konkret tələblər mövcuddur. ƏDV-ni geri almaq üçün sistemə daxil edilən kassa çekinin məlumatları Vergi Məcəlləsinin 50.8-ci maddəsinin tələblərinə cavab verməlidir. Bəzən kassa çekləri bu tələblərə cavab vermir. Bu tələblər nədir? Fiskal çeklərdə məhsulun adının qeyd olunmaması, çeklərin ümumi tələblərə uyğun olmaması (malın və ya xidmətin adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin məbləği), nəzarət-kassa aparatının markası və zavod nömrəsi; nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti); malın sürətli məlumat kodu (Quick Response Code) və s.) ƏDV-nin geri alınması üçün müraciətə imtina cavabının verilməsinə səbəb ola bilər. Ona görə də bu məlumatlara vətəndaşlar tərəfindən də diqqət yetirilməlidir".

Xidmət açıqlayır ki, imtinaya səbəb olan hallardan biri topdansatış əməliyyatlarının həyata keçirilməsi zamanı istifadə edilən çeklərin sistemə daxil edilməsidir. Qanunvericiliyə əsasən, bu qaydalar supermarket və digər pərakəndə ticarət obyektləri, restoran və kafelərdən alınmış mallara, göstərilmiş xidmətlərə görə ödənilən ƏDV-nin bir hissəsinin qaytarılması üçün tətbiq edilir: "İstehlakçılardan daxil olan bütün müraciətlər Dövlət Vergi Xidməti tərəfindən mütəmadi təhlil olunur və texniki xətalar baş verdikdə dərhal banklarla əlaqə saxlanılaraq onun həlli təmin edilir. Eyni zamanda informasiya sistemi və məlumat bazası daim optimizasiya edilir. Kassa çekinin verilməsindən imtina edildiyi hallarda istehlakçılar DVX-nin "Qaynar xətti"nə zəng edə bilərlər".

### ƏDV-ni geri istəyənlərin sayı artır

Xidmətin məlumatına görə, 2020-ci ilin may ayından indiyədək www.edvgerial.az portalında 1 milyon 340 mindən çox istifadəçi qeydə alınıb. "ƏDV geri al" layihəsinin tətbiq edildiyi vaxtdan 2021-ci ilin birinci rübünün sonunadək portalda qeydiyyatdan keçmiş istifadəçilər tərəfindən iki bank üzrə ümumilikdə 147.111.792 çek üzrə 60.192.462 manat ƏDV məbləği geri qaytarılıb.

2021-ci ilin birinci rübü ərzində çek əlavə edən müştərilərin sayında artım dinamikası müşahidə edilib. Belə ki, əgər yanvar ayında portalda qeydiyyatdan keçmiş 779.018 istehlakçı sistemə çek əlavə etmişdisə, mart ayında bu rəqəm 1.026.757 nəfərə çatıb. Bu da "ƏDV geri al" layihəsinə olan marağın sürətlə artdığını göstərir. Bütövlükdə, 2021-ci ilin birinci rübü ərzində 67.101.388 kassa çeki üzrə 26.770.074 manat ƏDV məbləği istehlakçılara geri qaytarılıb.



### "Binə", "Sədərək", "Dərnəgül" ticarət mərkəzlərində vergidən yayınma üçün münbit şərait var

İqtisadçı ekspert Fikrət Yusifov bu fikirdədir ki, ƏDV-nin geri qaytarılması prosesinin başlanğıcında olduğumuz üçün hələlik yetərincə problemlər var. Ancaq o, hesab edir ki, bu cür çatışmazlıqların olması təbiidir və onlar zaman-zaman aradan qalxacaq: "Bəzi marketlərdə hətta alıcıdan ona çekin lazım olub-olmadığını soruşanlar da olur. Bu hallar yanlışdır. ƏDV çeki mütləq qəbzlə birlikdə alış üçün ödəniş edilən kassada kassir tərəfindən verilməlidir. Bu baxımdan vətəndaşın müştəri xidmətlərinə yönləndirilməsinin heç bir əsası yoxdur".

İqtisadçının qənaətincə, ölkə miqyasında hesablaşmalarda sivil sistemin tam qurulub başa çatdırılması uzun prosesdir. Keçmişdən qalmış, bir çox iş adamlarının sərfəli, həm də rahat hesab etdikləri ödəniş qaydalarından birdən-birə imtina etmək bir o qədər də asan deyil: "Bugün bəzi ticarət obyektlərində post-terminallar işləmir və ya onların bəzilərində köhnə kassa-nəzarət aparatları işləyir. Bu kassalardan verilən çeklər ƏDV-ni geri qaytarmaq üçün tələb olunan formada olmur. Daha ciddi bir problem isə yetərincə böyük dövriyyəsi olan ticarət mərkəzlərində hələ də nağdsız hesablaşmaların aparılmasıdır. Məsələn, ölkədə hamının tanıdığı "Binə", "Sədərək", "Dərnəgül" və digər iri ticarət mərkəzlərində bütün hesblaşmalar bu gün də nağd şəkildə aparılır. Heç şübhəsiz ki, belə bir vəziyyət vergidən yayınmalar üçün münbit şərait yaradır".

Mütəxəssis deyir ki, əgər ticarət müəssisəsi alıcıya çek vermirsə, deməli o, dövriyyəsini gizlətməklə vergidən yayınmağa çalışır. Buna görə də vətəndaşlar öz haqlarını tələb etməyi bacarmalıdırlar: "Ən azından ona görə ki, çeki almaqla vətəndaş ƏDV-ni geri qaytaracaq və eyni zamanda bir vətəndaş kimi dövlət büdcəsinə çatmalı olan verginin təmin olunmasında öz sözünü deyəcək".

### ƏDV ödənişində maraqlı olmayan sahibkarlar stimullaşdırılmalıdırmı?

F.Yusifovun qənaətincə, ƏDV ödənişində müştərilərin aldanılmaması üçün konkret nəzarət mexanizmi var. Bu mexanizm əsasında bütün proseslər şəffaf həyata keçirilir: "İstehlakçı www.edvgerial.az portalında qeydiyyatdan keçib çekdəki 12 saydan ibarət fiskal ID nömrəsini daxil etməklə onu sistemə yükləyir. Bundan əlavə, çekin üzərindəki QR kodu "BirBank" mobil tətbiqi vasitəsilə oxutmaqla bu xidmətdən daha rahat yararlanmaq mümkündür. Yəni burada prosesin özü yetərincə şəffafdır və vətəndaş özü prosesə tam nəzarət edə bilir".

ƏDV ödənişində maraqlı olmayan sahibkarların stimullaşdırılmasına ehtiyacın olub-olmadığına gəldikdə, ekspert hesab edir ki, dövlət büdcəsinin əsas gəlir mənbələrindən biri olan ƏDV-nin ödənilməsi mütləqdir. Sahibkar bu vergini vaxtında və tam həcmdə ödəməyə borcludur: "ƏDV-nin ödənilməsini təmin etmək üçün xüsusi həvəsləndirmə üsullarının müəyyən edilməsinə ehtiyac görmürəm. Bu gün dövlət sahibkarların fəaliyyətinin stimullaşdırılması üçün müxtəlif səviyyəli güzəştlər təqdm edir, ixrac və investisiyaları təşviq edir. Hesab edirəm ki, sahibkarlar da bunların qarşılığında dövlət qarşısında olan vergi öhdəliklərini tələb olunan qaydada yerinə yetirməlidirlər".

### ƏDV-ni geri almaya da bilərik

Maliyyə üzrə ekspert Mahmud Abasquliyev bildirir ki, çekin fiskal ID məlumatları yanlış olduğu təqdirdə və ya çekin məlumatları vahid məlumat bazasına yüklənmədiyi halda, sistemə yüklənmə zamanı müvafiq xəta mətni əks olunur.

Sistemdə "Bu çek üzrə alınan mallara görə ƏDV ödənilməyib" xətası alınmış mallar ƏDV məbləği hesablanmayan və ya ƏDV-dən azad edilən məhsullar olduqda görünür. ƏDV ödəyicisi olmayan satıcılar tərəfindən satılan mal və xidmətlərə ƏDV hesablanmadığı zaman "Satıcı ƏDV ödəyicisi deyil" xətası qeyd edilir və bu halda ƏDV-nin qaytarılması mümkün olmur.

M.Abasquliyev deyir ki, çek məlumatları elektron kabinetə daxil edildikdən sonra nəticə barədə məlumat əks olunmursa, çekin fiskal ID-sinin düzgün daxil olunmasını və ya həqiqiliyini "e-kassa.gov.az" internet səhifəsi üzərindən "Çeki yoxla" bölməsi vasitəsilə yoxlamaq olar. Çekin tapılmaması səbəblərindən biri də əməliyyat zamanı nəzarət qurğusunun internetə çıxışının olmamasıdır. Bu halda çekin yaranma tarixindən 7 gün sonra ƏDV-ni geri qaytarmaq məqsədilə çekin fiskal ID-si təkrar portala daxil edilməlidir.

M.Abasquliyev nəzərə çatdırır ki, hədiyyə kartı alınarkən ƏDV ödənildiyindən bu kartlarla alışlar həyata keçirilərkən ƏDV ödənilmir. Onun sözlərinə görə, hədiyyə kartının satışına və həmin hədiyyə kartı əsasında təqdim edilən mala görə nəzarət-kassa aparatına vurulmuş məbləğlərin ikiqat vergiyə cəlb edilməməsi üçün bu məbləğlər barədə məlumat vergi orqanına təqdim olunur.

### Malın pulu hissə-hissə ödənilərsə...

Malların dəyərinin hissə-hissə ödənilməklə (beh və ya avans) satışı həyata keçirildikdə malın tam dəyəri ödənildikdən sonra ƏDV məbləği geri qaytarılır.

Alıcı hər hansı malı qaytardıqda ƏDV məbləğinin necə qaytarıldığını açıqlayan ekspert deyir ki, çek üzrə ƏDV hələ qaytarılmadıqda ödənilmiş tam məbləğ, ƏDV qaytarıldıqda isə qaytarılmış ƏDV məbləğ çıxılmaqla formalaşan məbləğ alıcıya qaytarılır.

Qaytarılmalı ƏDV məbləği ilə bağlı məlumat vahid məlumat bazası üzərindən 5 gün müddətində müvəkkil banka ötürülür. Bank 10 gün müddətində qaytarılmalı ƏDV məbləğini istehlakçının bank hesabına köçürür.

### Problemlər varsa…

M.Abasquliyev əlavə edir ki, fiskal ID tam olaraq çap olunmadıqda, QR kod oxunmadıqda çekin dublikatını əldə etmək üçün onun verildiyi satış nöqtəsinə yaxınlaşmaq lazımdır.

Qaytarılmalı ƏDV məbləğinin yanlış hesablandığını düşünənlər Dövlət Vergi Xidmətinin 195-1 Çağrı Mərkəzinə müraciət edə bilərlər.

Mütəxəssis istehlakçılar üçün ƏDV-nin düzgün hesablanma qaydasını da açıqlayıb: "Tutaq ki, vətəndaş 236 (200 manat + 36 manat (ƏDV 18%)) manatlıq Pos-terminal, 59 (50 manat + 9 manat (ƏDV-18 faiz) isə nağd qaydada ödəniş edərək mallar alır. Vergi Məcəlləsinin tələblərinə əsasən, vətəndaşa qaytarılacaq ƏDV-nin məbləği POS-terminalla aldığı mala görə 5.40 manat (36 manat x 15 faiz) təşkil edirsə, nağd qaydada aldığı mala görə 0,90 (9 manat x 10 faiz) manat təşkil edəcək. Vətəndaşın müraciətinə əsasən, aldığı 295 (118+59) manat mala görə 6.30 (5.40 + 0.90) manat geri qaytarılacaq".

### ƏDV-nin faizi artırılsın?

F.Yusifov hesab edir ki, ƏDV-nin nağdsız ödəmələr üzrə 15, nağd ödənişlər üzrə 10% geri qaytarılması sistemində nağdsız ödənişlərin xeyrinə addım atmaq olar: "Daha yaxşı olardı ki, vətəndaşa nağdsız ödəniş üçün ƏDV 18, nağd ödəniş üçün 7% geri qaytarılsın. Bu nağdsız hesablaşmaların daha geniş tətbiqini sürətləndirərdi".

Sistemin təkmilləşirilməsi barədə digər təkliflərini də açıqlayan iqtisadçı deyir ki, ƏDV-nin qaytarılması üzrə edvgerial.az portalından Kapital Bank və Beynəlxalq Bankdan başqa digər banklara da ƏDV üzrə geri qaytarmalar üçün imkanların yaradılması yaxşı olar. Müştərinin ƏDV hesabında yığılmış vəsaitin onun digər banklarda olan hesablarına köçürülməsi üçün ödənişlərin aradan qaldırılması da məqsədə müvafiq olardı.

F.Yusifov bəzi məsələlərə nəzarətin gücləndirilməsini də vacib sayır: "Digər problem vətəndaşlara verilən çeklərin keyfiyyətinin aşağı olmasıdır ki, bəzən onlar belə çekləri sistemə daxil etməkdə çətinlik çəkirlər. Başqa məsələ odur ki, vətəndaş ƏDV-nin geri qaytarılmasını 30 gün gözlədiyi halda, onun çeki ödəniş həyata keçirildikdən 10-15 gün ərzində hansısa səbəbdən ləğv edilir. Bu məsələlərə aidiyyəti qurumlar nəzarəti gücləndirməlidirlər".

Sistem istifadəçilərinin sayının və qaytarılan ƏDV məbləğinin artması onu göstərir ki, ölkədə bu layihəyə maraq getdikcə artır. ƏDV-nin geri qaytarılması prosesində yalnız vətəndaşlar deyil, biznes ictimaiyyəti də aktiv iştirak edir. Lakin bu aktivliyi bütün biznes nümayəndələrinə şamil etmək olarmı?!

*Ölkədə hələ də vergidən yayınmaq üçün səylərini əsirgəməyən, istehlakçıya ƏDV-ni ödəməkdə maraqlı olmayan kifayət qədər iş adamı var. Ümid edək ki, iqtisadiyyatımızın şəffaflaşmasına yönələn bu mexanizmin uğurla tətbiq olunmasında vətəndaşlar qədər sahibkarlıq subyektləri də fəal iştirak edəcəklər, dövlətin müvafiq qurumları isə bu prosesə nəzarəti daha da gücləndirəcəklər.*

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Daha 40 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə mənzillər verildi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Sabunçu rayonu, Ramana qəsəbəsində daha 40 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə mənzillər təqdim olunub.**

Mənzillərin sənədlərini nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov və Nazirlik yanında İctimai şuranın sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev təqdim ediblər.V.Behbudov çıxışında şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə sosial dəstək göstərilməsi sahəsində aparılan genişmiqyaslı işləri diqqətə çatdırıb. O, Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi ev veriləcəyini vurğulayıb.

Qeyd olunub ki, bu il ərzində 3 minədək mənzil və fərdi ev bu kateqoriyadan olanlara təqdim ediləcək. Bu gün verilən mənzillər də daxil olmaqla 2021-ci ilin planı üzrə artıq 300 mənzil şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə verilib. 2021-ci ildə regionlarda 450 fərdi ev də tikilərək qeyd olunan kateqoriyadan olan şəxslərə təqdim ediləcək.

Ümumilikdə, indiyədək şəhid ailələrinə, müharibə əlillərinə 9500 mənzil və fərdi ev verilib.

## Qazilərimizin yüksək texnologiyalı protezlərlə təminatına başlanır

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində yuxarı ətrafların yüksək texnologiyalı protezlərlə təminatı sahəsində qabaqcıl dünya təcrübəsinin öyrənilməsi üçün 4 günlük təlimlərə başlanıb.

Təlimləri bu sahədə dünyanın ən qabaqcıl texnologiyaya sahib şirkəti olan İslandiyanın "ÖSSUR" şirkətinin Rusiya nümayəndəliyinin mütəxəssisləri aparır.

Agentliyin sədri Cavid Əbdul-qədirov vurğulayıb ki, Prezident İlham Əliyevin müharibə iştirakçılarına xüsusi qayğısının təzahürü olaraq, qazilərimizlə bağlı genişmiqyaslı dəstək tədbirləri həyata keçirilir. Dəstək tədbirləri sırasında müharibədə yaralanmış qazilərimizin reabilitasiya xidmətləri və reabilitasiya vasitələri ilə təminatı mühüm yer tutur.

Bildirilib ki, müharibə əlillərinin ötən ilin dekabr ayından yüksək texnologiyalı protezlərlə təminatı işləri aparılır. Artıq 16 hərbçi yüksək texnologiyalı protezlə təmin olunub və bu sahədə işlər davam etdirilir. Yaxın zamanlarda daha 12 hərbçi elektron ayaq protezi ilə təmin olunacaq.

## Azərbaycan davamlı tərəqqiyə, Ermənistan isə sonsuz tənəzzülə köklənib




### Bunu Prezidentin iştirakı ilə açılan yeni enerji və sənaye obyektləri bir daha təsdiqləyir

*Əvvəli 1-ci səh.*

Faktiki olaraq bu yarımstansiyanın yenidən qurulması ölkənin həm paytaxtında, həm də şimal bölgəsində enerji təchizatında yeni imkanlar yaratmışdır.

Yenidən qurulan "Maştağa" yarımstansiyası da 1949-cu ildə tikildiyindən istismar müddəti başa çatmışdı. Yenidən qurulduqdan sonra yarımstansiyanın əvvəlki gücü bərpa edilmiş, istehlakçıların fasiləsiz və keyfiyyətli enerji təchizatına zəmin yaradılmışdır. "Maştağa" yarımstansiyası bundan sonra Maştağa, Buzovna, Bilgəh, Nardaran qəsəbələrini, Savalan, "Albalılıq" yaşayış massivlərini, dənizkənarı sanatoriya, xəstəxana, hotellər və digər obyektlər də daxil olmaqla Sabunçu və Xəzər rayonlarının 150 min nəfərə çatan əhalisini elektrik enerjisi ilə etibarlı təmin edəcək.

Bütün bunlar o deməkdir ki, biz ölkənin enerji sektorunda tətbiq edilən yeniliklərin fonunda Azərbaycan Prezidentinin sosial-iqtisadi siyasət kursunun məqsədyönlü inkişafının şahidi oluruq. Postmüharibə dövründə iqtisadi islahatların tətbiqi müstəvisindən Ermənistana nəzər salanda işğalçıların hələ də məğlubiyyət sindromundan əziyyət çəkdiyini görürük.

Faşist ideoloigiyasının erməni xalqının bütün perspektivlərinə qənim kəsildiyini anlamayan erməni siyasi eilatası ona təklif edilən sülh imkanlarından faydalanmaq əvəzinə hələ də süst düşmənçiliklə ləngərləyir, Bakıda açılan Qənimətlər parkına dodaq büzüb ağzı əmzikli uşaq kimi inildəyir. Təəssüf ki, onlar nə qədər komik göründüklərinin fərqində deyillər.

Erməni nasistləri Azərbaycan ərazilərində törətdikləri vəhşilikləri, dağıtdıqları məscid və kilsələri, viran qoyduqları şəhər və kəndləri, dinc əhaliyə qarşı törətdikləri saysız cinayətləri gizlətmək istəyirlər. Elə bilirlər ki, yüz il əvvəl şaumyankimilərinin cinayətlərini necə ört-basdır etmişlərsə, indi də yalan və böhtanlar arxasında gizlənə biləcəklər. Alınmayacaq. Başlarını mənasız oyunlara qatırlar. Bu, onların personal faciəsidir.

Sadə bir faktı xatırlayaq: 30 illik işğal dövründə böyük Ermənistan ideyası ilə savaşa qalxan 3,5 milyonluq Ermənistanda bu gün əhalinin sayı iki dəfə azalıb. Çünki işğal etdikləri ərazilərdə məskunlaşa bilmədilər və bununla özləri də bilmədən sübut etdilər ki, böyük Ermənistan ideyası erməni xalqının yox, bölgədə münaqişəni daim körükləmək istəyən qüvvələrin təxəyyülünün məhsuludur. Böyük Ermənistan yaratmaq istəyən xalqın tən yarısı niyə bu ölkəni tərk etdi, yaxud 10 min fərarisi olan erməni ordusu niyə döyüşmək istəmədi?

Qənimətlər parkı və bundan sonra işğal edilmiş ərazilərdə yaradılacaq muzeylər bu suallara cavab verəcək. İliyinədək faşizm ideyalarına yoluxan xalq və onun siyasi elitası törətdikləri bütün cinayətlərin cəzasını çəkməli, bədəlini ödəməlidir. Biz bu müharibədə nə qədər fərqli və humanist olduğumuzu nümayiş etdirdik. Azərbaycan postmüharibə dövründə yeni intibaha start verib və yeni hədəflərə köklənib. Ermənistan isə hələ də daxili didişmələrin məngənəsində üzülür.

Biz işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərinə başlamışıq - yeni yollar çəkir, aeroportlar tikir, "ağıllı" kənd və "ağıllı" şəhər layihələrini reallaşdırır, aqrar sektoru dirçəldirik. "Hövsan" yarımstansiyasının açılışı zamanı "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlət başçısına məlumat verdi ki, Şükürbəyli də, Şuşa da yeni obyektlərin açılışına hazırdır. İki nömrəli xətt artıq çəkilib, Füzuli yarımstansiyasının xətti də hazırdır, ay yarıma özü də hazır olacaq. Erməni işğalçılarının dağıtdıqları su elektrik stansiyalarından "Suqovuşan 1" və "Suqovuşan 2" işə salınıb və hazırda testlərdən keçirilir. Yaxın günlərdə işlərin tam başa çatması barədə dövlət başçısına məruzə ediləcək. Kəlbəcərdə araşdırmalar gedib, müəyyənləşdirmələr aparılır, yol problemi avadanlıqların daşınmasında çətinlik törətsə də yarımstansiyanın tikintisi sürətlə aparılır. Artıq hərbçilər elektrik enerjisi ilə təmin edilir, Şuşaya fasiləsiz elektirik enerjisi verilir.

Bəli, Azərbaycan üçün müharibə qurtarıb və kimsə bizim müqəddəs qələbəmizə kölgə salmaq gücündə deyil. Ermənistanda isə siyasi elita məğlubiyyətdən özünə gələ bilməsə də, övladları bizim torpaqlarımızda qırılan erməni əsgərlərinin valideynləri artıq dərk edir ki, Qarabağ onların deyil və özgə torpaqları uğrunda ölmək ağılsızlıqdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## İnformasiya və rabitə xidmətlərinin dəyəri artıb

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 2,5 faiz artaraq 531,2 milyon manat olub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu sahədə əldə edilmiş gəlirin 79,6 faizi qeyri-dövlət sektorunun payına düşüb. Xidmətlərdən əldə edilən gəlirin 41,2 faizi və ya 219 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşıb.

Rabitə xidmətlərinin dəyəri rabitə müəssisəsinin əsas fəaliyyətindən əldə olunan gəlirlərdir. Bu göstərici idarə, müəssisə və təşkilatlara, habelə əhaliyə göstərilmiş xidmətlər müqabilində rabitə müəssisəsinin əldə etdiyi pul vəsaitinin cəmini xarakterizə edir. Buraya poçt rabitəsi, feldyeger və xüsusi rabitə, sənədli elektrik rabitəsi, şəhərlərarası və beynəlxalq telefon rabitəsi, şəhər telefon rabitəsi, kənd telefon rabitəsi, radiorabitə, radio və televiziya yayımı və peyk rabitəsi, naqilli səs yayımı üzrə radiotezliklərin ayrılması, qeydiyyatı, istismarı və nəzarəti, naqilsiz radiorabitə üzrə mobil telefon rabitəsi, internet xidmətləri, ISDN xidmətləri, ADSL və HDSL xidmətləri, DATA xidmətləri, simsiz yerli telefon rabitəsi xidmətləri və digər rabitə xidmətləri üzrə əldə olunmuş gəlirlər daxildir.

*Çiyid səpini*

## Biləsuvarda 8,5 min hektarda pambıq becəriləcək

**Bir neçə gündür ki, Biləsuvarda çiyid səpininə başlanılıb.**

Ötən il pambıq plantasiyalarından 28 min 333 ton xam pambıq istehsal edən biləsuvarlı əkinçilər cari ildə 8 min 520 hektar sahəyə çiyid səpməyi planlaşdırıblar.

Bunun üçün 1491 məhsul istehsalçısı ilə müqavilə bağlanılıb və onlar lazımi texnika, toxum, dərman preparatları ilə təmin olunub və digər lazımi köməklik göstərilib.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, səpin kampaniyasına mütəşəkkil başlayan pambıq istehsalçıları qısa müddətdə 2 min 334 hektar sahəyə toxum səpiblər. İşin yaxşı təşkili nəticəsində gün ərzində rayon üzrə ümumilikdə, 120-130 hektar sahəyə çiyid səpilir. Səpin aparılmış sahənin 1017 hektarı "MKT-İK" MMC-yə, 214 hektarı "AZƏRPAMBIQ" MMC-yə, 625 hektarı "P-AQRO" MMC-yə, 478 hektarı isə "Təcrübə-Sınaq" məntəqəsinə məxsusdur. Məhsul istehsalçıları səpini optimal müddətdə başa çatdırmaq üçün bütün imkanlardan səmərəli istifadə edirlər.

## Ağcabədidə isə səpin başa çatmaq üzrədir

Respublikamızın ən iri pambıqçılıq rayonlarından olan Ağcabədidə çiyid səpini başa çatmaq üzrədir.

AZƏRTAC xəbər verir ki, cari ildə rayon ərazisində 10 min 986,2 hektara yaxın əkin sahəsində pambıq əkilməsi planlaşdırılıb. Bununla əlaqədar olaraq, "Azərpambıq" MMC, "MKT İstehsal Kommersiya" MMC və "P-Agro" MMC ilə istehsalçılar arasında müqavilələr bağlanılıb. Əkin sahələrindən yüksək məhsul əldə etmək üçün aqrotexniki tələblərə düzgün və ardıcıl əməl olunması diqqət mərkəzində saxlanılıb. Sahələr optimal müddətdə şumlanılıb, təmizlənib, suvarma suyu və mineral gübrələrlə təmin olunub, malalanıb. Ağcabədi pambıqçıları səpin kampaniyasına mütəşəkkil başlayaraq qısa müddətdə 9135,86 hektar sahəyə çiyid səpiblər. Səpin aparılmış ərazilərin 343 hektarında çıxış alınıb. Səpin işlərinin bir neçə günə başa çatdırılması nəzərdə tutulur.

## Alimin məsləhəti, əkinçinin zəhməti



**Son dövrlər yeni texnologiyaların ən çox tətbiq olunduğu sahələrdən biri də kənd təsərrüfatıdır ki, bu da təsadüfi deyil. Çünki dünyada ərzağa tələbat sürətlə artır. Tələbatın ödənilməsi üçün isə daha bol məhsul istehsal edilməlidir. Buna nail olmaq üçün indi bütün dünyada tədqiqatlar aparılır və nəticədə aqrar sektorda daha məhsuldar sortlardan istifadəyə üstünlük verilir.**

### Yeni meyvə-tərəvəz sortları bol məhsul yetişdirməyə imkan verir

Azərbaycanda da bu sahəyə xüsusi diqqət yetirilir. Hazırda ölkəmizin kənd təsərrüfatında yeni, daha məhsuldar sortlardan geniş istifadə olunur. Fermerlər bu yolla bitkiçiliyin bütün sahələrində bol məhsul əldə etməyə çalışırlar.

İlk növbədə, mövcud sortlar seleksiya yolu ilə təkmilləşdirilərək daha məhsuldar səviyyəyə gətirilir. Bununla yanaşı, Azərbaycana xarici ölkələrdən də məhsuldar sortlar gətirilir və onlar yerli şəraitə uyğunlaşdırıldıqdan sonra fermerlərə verilir. Yeri gəlmişkən qeyd edək ki, son bir neçə ildə meyvəçilikdə və tərəvəzçilikdə məhsuldarlığın artmasının bir səbəbi də bununla bağlıdır.

Təsadüfi deyil ki, indi fermerlər bağ salarkən əvvəlcə mütəxəssislərlə məsləhətləşirlər, əsasən də hansı meyvə sortlarının əkiləcəyi müzakirə edilir. Məqsəd, əlbəttə, daha çox məhsul əldə etməkdir. Odur ki, fermerlər qərarı mütəxəssislərin rəyinə uyğun olaraq verirlər.

Onların mütəxəssislərdən məsləhət alarkən əsas diqqət yetirdikləri məqamlardan biri də yeni sortlardan istifadə qaydaları ilə bağlıdır. Məsələn, tovuzlu fermerlər bağ salmağa rentabelliyi əvvəlcədən nəzərə almaqla üstünlük verirlər. Onlar mütəxəssislərin məsləhətləri əsasında hansı məhsulun gəlir gətirəcəyini öyrənir, istifadə etdikləri torpağın hansı meyvənin yetişməsi üçün əlverişli olduğunu öncədən müəyyənləşdirərək qərar verirlər. Bunun sayəsində rayonda meyvə istehsalı və ixracı xeyli artıb.

Məlumdur ki, hazırda Azərbaycanın meyvə-tərəvəz ixracında pomidor üstünlük təşkil edir. O, qeyri-neft məhsullarının ixracında ölkəmizə ən çox valyuta gətirən tərəvəzdir. Odur ki, ölkədə pomidorun becərilməsinə və xarici bazara çıxarılmasına xüsusi dəstək verilir. Bu məhsul Azərbaycanda iki qaydada yetişdirilir. Biri pomidorun istixanalarda yetişdirilməsi, digəri ənənəvi qaydada, yəni tarlada əkilməsidir. Dövlət məhsulun hər iki qaydada yetişdirilməsi üçün fermerlərə dəstək verir, həmçinin bu sahədə yeni sort məhsuldar toxumlardan istifadəni stimullaşdırır.

Hazırda yaz-tarla işlərinin qızğın çağıdır. Bir çox məhsulların əkini həyata keçirilir. Saatlı rayonunun Qaralar kəndində çalışan fermer Həbib Əhmədov da özünə məxsus olan əkin sahəsində pomidor becərmək barədə qərar verib. O, həm də bu il əkinin aparılmasında innovativ üsula və daha məhsuldar "Lajin" sortuna üstünlük verib. Qeyd edək ki, "Lajin" sortunun yetişmə müddəti digər növlərə nisbətən çox qısadır. Belə ki, bu sortdan olan pomidorun yetişmə müddəti 70-80 gündür. Bu sort həmçinin istiliyə dözümlülüyü ilə də seçilir. O səbəbdən təkcə Saatlıda yox, bütün Aran bölgəsində fəaliyyət göstərən fermerlər həmin sorta üstünlük verirlər.

Azərbaycan qədim zamanlardan üzümlüklər diyarı kimi də tanınır. Ölkəmizin müxtəlif yerlərində yüzlərlə üzüm sortu mövcud olub. Lakin indi bu sahədə də daha məhsuldar sortların yetişdirilməsinə ehtiyac var. Üzümçülükdə məhsuldarlıq və ətraf mühitə dözümlülük əsas şərtlərdəndir. AMEA-nın Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Meyvə, tərəvəzçilik və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmlər doktoru Varis Quliyevin üzümçülük sahəsində uzun illər apardığı elmi-tədqiqat işləri uğurla nəticələnib. Alim apardığı tədqiqatlar sayəsində müxtəlif genetik üsullarla yeni yaratdığı "Naxçıvan muskatı", "Əlincə", "Oğuz üzümü", "Qəhvəyi kişmişi", "Milax üzümü", "Bənəniyar üzümü" adlı yeni sortlara görə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi tərəfindən 6 patent və müəlliflik şəhadətnaməsi alıb.

Sözügedən sortlardan "Qəhvəyi kişmişi" tez, "Əlincə", "Oğuz üzümü", "Milax üzümü" orta vaxta , "Naxçıvan muskatı" və "Bənəniyar üzümü" isə gec yetişəndir. Yeni alınmış perspektivli və iqtisadi əhəmiyyətli üzüm sortlarının ölkəmizin əsas üzümçülük bölgələrində artıq becərilməsinə də başlanıb.

Mütəxəssislər və fermerlər yeni sortların yaradılmasının və onların əyani tətbiqinin ölkəmizin aqrar sektoruna, ümumən iqtisadiyyatına böyük fayda gətirəcəyinə əmindirlər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan***

## I rüb üzrə neft-qaz göstəriciləri açıqlanıb

2021-ci ilin I rübü üzrə operativ məlumatlara əsasən, Azərbaycanda təxminən 8,8 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Neft (kondensatla birlikdə) hasilatı ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən, 552 min ton az olub.



Bu dövrdə respublika üzrə neft hasilatının 5,9 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 959 min tonu (kondensat) "Şahdəniz"in payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 1,9 milyon ton təşkil edib.

Hesabat dövründə təxminən 7,3 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 6,9 milyon tonu konsorsium, 370 min tonu isə SOCAR-ın payına düşür. Neftin (kondensatla birlikdə) ixraca nəqli 2020-ci ilin müvafiq dövrünə nisbətən, təxminən 320 min ton, yəni 4 faiz azdır.

Cari ilin yanvar-mart aylarında ölkədə 10,4 milyard kub metr qaz hasil edilib. Qazın 3,4 milyard kub metri AÇG-dən, 5,1 milyard kub metri "Şahdəniz" yatağından, 1,9 milyard kub metri isə SOCAR tərəfindən hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 4 faiz, yəni 407 milyon kub metr artımla qaz hasil edilib.

Hesabat dövründə xaricə qaz satışı təxminən 5 milyard kub metr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən 39,5 faiz çoxdur. Bu ilin ilk 3 ayı ərzində 2020-ci ilin müvafiq dövrünə nisbətən Türkiyəyə 15,8 faiz çox, yəni 3 milyard kub metr, Avropaya təqribən 1,1 milyard kub metr, Gürcüstana isə 784 milyon kub metr qaz ixrac edilib. Bu dövrdə BTC boru kəməri sisteminə 27 milyon kub metr qaz verilib. Qeyd edək ki, TANAP ilə Türkiyəyə bu müddətdə 1,4 milyard kub metr qaz nəql olunub.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 01 aprel 2021-ci il tarixədək təqribən 561 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. AÇG-dən 530 milyon ton xam neft, "Şahdəniz"dən isə 31 milyon ton kondensat çıxarılıb. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 2021-ci ilin 1 aprel tarixədək təqribən 560,5 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql edilib. Yataqlar istismara veriləndən cari ilin 1 aprel tarixədək "Azəri-Çıraq-Günəşli"dən 180 milyard kub metr, "Şahdəniz"dən isə 140 milyard kub metr qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın təxminən 95 milyard kub metri ixraca nəql edilib.

Ölkədə neft emalı 2021-ci ilin yanvar-mart aylarında 1,4 milyon ton təşkil edib. Neft emalı ötən ilin müvafiq dövrünə nisbətən 93 min ton az olub.

## 5 rayon üzrə 10 kəndin yolu yenidən qurulur



Dövlət başçısının tapşırığına uyğun olaraq, yol infrastrukturunun yenidən qurulması, müasir səviyyəyə çatdırılması ilə bağlı layihələr hər bir bölgəni, rayonu və kəndi əhatə edir.

Bu cür layihələrdən bir neçəsi Ucar, Zərdab, Ağcabədi, Yevlax və Şəki rayonları ərazisində icra olunur. Belə ki, Azərbaycan Hökuməti ilə Asiya İnkişaf Bankı arasında imzalanmış kredit sazişi çərçivəsində Şəki rayonu Dərəcənnət və Təpəcənnət, Yevlax rayonu Qaraoğlan və Quşçu, Ucar rayonu Alpı və Qulabənd, Zərbad rayonu Yarməmmədbağı, Körpükənd və Əlvənd və Ağcabədi rayonu Şənlik kənd yollarının bərpasının maliyyələşdirilməsi qərara alınıb.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra edilən layihəyə əsasən, qeyd edilən kənd yollarının ümumi uzunluğu 61,7 kilometrdir. IV texniki dərəcəyə uyğun olaraq bərpa edilən yolların hər birinin eni 10 metrdir.

Əsaslı şəkildə yenidən qurulan yerli əhəmiyyətli bu yollar 10 kəndin 12 mindən artıq əhalisi ilə yanaşı, həmin yollardan istifadə edən bütün vətəndaşların rahat gediş-gəlişini təmin edəcək. Bundan başqa, kənd təsərrüfatı məhsullarının tez və xarab olmadan rayon mərkəzinə və qonşu rayonlara daşınmasına şərait yaradacaq.

## Hüseyn Əliyev - 110

# Ecazkar fırça ustası

**Anadan olmasının 110 illik yubileyini qeyd etdiyimiz ecazkar fırça ustası Hüseyn Əliyev Azərbaycan təsviri sənətinin unudulmaz nümayəndələrindən biridir. Bu istedadlı rəssamın yaradıcılığında portret və təbiət mənzərələri üstünlük təşkil edir.**



Azərbaycan Xalq rəssamı Hüseyn Əlirza oğlu Əliyev 1911-ci il aprelin 22- də Zəngəzur mahalının Qarakilsə bölgəsinin Comərdli kəndində anadan olmuşdur. Bəlkə də dünyaya gəlişi bahar fəslinə təsadüf etdiyindəndir ki, kiçik yaşlarından təbiət, dağ, şəlalə, bir sözlə, min bir gözəllik yaradıcılığının əsas qayəsini təşkil etmişdir. Təsadüfi deyil ki, ilk təbiət mənzərəsini çəkəndə onun 12 yaşı olub. Bu ilk cığır onu 16 yaşında Bakıya gətirib. 1927-ci ildə Bakıda Rəssamlıq Texnikumuna daxil olan bu gənc 1932-ci ildə həmin texnikumu müvəffəqiyyətlə başa vurub. Hüseynin şəkil çəkmək, yaratmaq arzuları onu yeni uğurlara qovuşdurmuşdur. O, tələbəlik illərindən başlayaraq dövrün çox populyar jurnalı “Molla Nəsrəddin”lə (1927-1932) əməkdaşlıq etmiş, zamanın müxtəlif eybəcərliklərini qamçılayan karikaturaları jurnalın səhifələrində çap olunmuşdur. Bir sözlə, Hüseyn Əliyevin rəssam kimi formalaşmasında bu jurnalın böyük rolu olmuşdur.

Xalq rəssamı Tahir Salahov öz xatirələrində yazır: “Qəlbimdə Xalq rəssamı Hüseyn Əliyevin işıqlı, cazibəli xatirəsi yaşayır. O, Azərbaycan rəssamlıq ənənəsini Bəhruz Kəngərli və Əzim Əzimzadədən alıb davam etdirmişdir. Biz nəsil rəssamlar incəsənətə xeyli sonralar gəlmişik. Həmişə bu qocaman ağsaqqalımıza minnətdarlıqla yanaşır, onun yaradıcılığını və mədəniyyətə gətirdiyi yeni nəfəsi yüksək qiymətləndiririk. O, rənglərlə işləməyin ustası idi. Xüsusilə də məzmunun mənasını açmağa kömək edən atribut və rəmzləri əsərlərində məharətlə tətbiq edirdi. Onun rənglərində musiqinin ritmi və ahəngi duyulurdu. Bu canlılıq hər rəssama xas olmur”.

Hüseyn Əliyev 1932-1935-ci illərdə Leninqrad (Sankt-Peterburq) Boyakarlıq, Memarlıq və Heykəltəraşlıq İnstitutunda oxumuşdur. Təhsilini başa vurduqdan sonra yaradıcılıq taleyini mətbuata bağlayan istedadlı və zəhmətsevər rəssam jurnalistlərin həmkarı kimi də tanınıb. Uzun illər “Kommunist” qəzetində (indi “Xalq qəzeti”) bədii tərtibat şöbəsində baş rəssam, sonra şöbə müdiri vəzifəsində çalışan Hüseyn Əliyev təkcə fırça ilə deyil, qələm ilə də işləyirdi. Hüseyn Əliyev Leninqrad Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirdiyi ildən təqaüdə çıxanadək adıçəkilən qəzetdə işləyib. Qəzetçiliyin gündəlik qayğıları, operativlik rəssam kimi onun vaxtını çox alsa da, peşəkarlığı və əzmkarlığı sayəsində sənət imtahanından həmişə qalib çıxmışdır. 1939-cu ildə Mirzə Fətəli Axundzadənin portretini yaratmaq üçün elan edilmiş respublika müsabiqəsində gənc rəssamın əsəri mükafata layiq görülmüşdür. Dövrün, zamanın tələbləri ilə bağlı çəkdiyi plakatlar ictimai-siyasi məzmununa, sadəliyinə və orijinallığına görə fərqlənirdi.

1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda bir çoxları kimi Hüseyn Əliyev də cəbhəyə getmişdir. Təşviqat alayında rəssam kimi fəaliyyət göstərmişdir. Bu ağır illərdə qanlı döyüşlərin, qəhrəmanlıqların şahidi olan əsgər-rəssam bir neçə döyüşçünün portretini yaratmışdır. Fəaliyyəti yüksək qiymətləndirilmiş, “Qafqazın müdafiəsinə görə”, “1941-1945-ci illərdə arxa cəbhədəki şərəfli əməyinə görə”, “Böyük Vətən müharibəsinin 30 illiyi” medalları və “Xalqlar dostluğu” ordeni ilə təltif olunmuşdur. Bacarıqlı rəssam kimi üç dəfə Azərbaycan, bir dəfə Ukrayna Ali Sovetinin fəxri fərmanlarını almışdır. 1940-cı ildən respublika Rəssamlar İttifaqının üzvü olan Hüseyn Əliyev 1976-cı ildə “Əməkdar rəssam”, 1982-ci ildə “Xalq rəssamı” fəxri adlara layiq görülmüşdür.

Əsasən qrafika ilə məşğul olan Hüseyn Əliyev mənzərə ustası kimi də məşhur idi. O, doğma vətənin füsunkar təbiətini seyr etməkdən xüsusi zövq alardı. Rəssamın duyğuları isə rənglərdən ibarət nəhəng bir çələngə çevrilərdi. 1960-1970-ci illərdə yaratdığı peyzajlar sənətin məhz bu janrına yeni nəfəs və ruh gətirmişdi. Doğma yerlərin bənzərsiz təbiəti Hüseyn Əliyevin fırçası ilə kətan üzərində canlandıqca sanki yeni bir möcüzə ilə qarşılaşırdın. Yoluna, izinə, dağına, dərəsinə bələdçilik etdiyimiz yurd yerlərinin əzəməti, gözəlliyi önündə bir daha valeh olursan. Bu mənada rəssamın Göygölün təsvirinə həsr edilmiş silsilə əsərləri xüsusilə diqqətçəkəndir. Xalq rəssamı Azərbaycan təbiətinin incisi sayılan bu mavigözlü gözəlin müxtəlif variantlarda təsvirini yaratmışdı. Gah dumanlı dağların yaşıl qoynunda məskən salmış Göygölün mavi sularını kətanda əks etdirmiş, gah da hər hansı təkrarolunmaz gözəlliyindən yeni mövzu yaratmışdır. Onun qurduğu kompozisiyalar, rəng bağlılıqları, və koloritlik öz bənzərsizliyi ilə seçilirdi. İki il ərzində Kəpəz dağının 25-dən artıq akvarel görünüşünü kətana naxışlayan Hüseyn Əliyev həqiqətən möcüzə yaratmışdı.





Xalq rəssamı Mikayıl Abdullayev sənət dostunun bu uğurundan vəcdə gələrək mətbuata açıqlamasında demişdir: “Dünya təcrübəsində yalnız italyan rəssamının bir dağın on görünüşündən başqa heç kim bir obyektin 25 görüntüsünü kətan üzərində əks etdirməyib”. Təəssüf ki, bu əsərlərin yalnız 13-ü əlimizdədir, 3 əsərinin isə slaydı, 1 əsəri isə fotoşəkil formasında qorunub saxlanılmışdır. Bu əsərlərin toplusu kimi Hüseyn Əliyevin “Göygöl mənzərələri” adlı albomu çap edilmiş və burada rəssamın 17 əsəri verilmişdir.

Rəssam ekspertlərin fikrincə, Hüseyn Əliyevin Naxçıvan və Zəngəzurla bağlı analoqu olmayan onlarca əsəri var. Xalq rəssamının böyük məharətlə yaratdığı “İlanlı dağ” tablosu son dərəcə orijinal və qeyri-adi gözəlliyə malik əsər kimi bütün sənətsevərlərin diqqətini çəkmişdir. “Urud qalası” peyzajı rəssamın yaradıcılığında şah əsərlərdən biridir. Bu sənət nümunəsi təkcə orijinal kompozisiyası, quruluşu, obrazlı gözəlliyi ilə deyil, həm də dağ qalasının özünəməxsusluğunun təbii boyalarla verilməsi ilə fərqlənir. Hüseyn Əliyevin Zəngəzur mövzusuna həsr etdiyi akvarel seriyalar da maraqlıdır. Doğma yurdun hər qarışını böyük məhəbbətlə duyğularından, təxəyyülündən yaradıcılıqla keçirən istedadlı rəssamın “Zəngəzur mənzərəsi”, “Zəngəzur dağları”, “Şəki şəlaləsi”, “Comərdli mənzərəsi”, “Meşədə qış”, “Payız”, “Qürub çağı” kimi əsərləri incə müşahidə qabiliyyətinin məhsuludur.

Hüseyn Əliyev portret çəkən rəssam kimi də çox böyük uğur və şöhrət qazanmışdır. O, əslində bu janrın ustadı idi. Çəkdiyi portretin hər biri insanın daxili dünyasını, sənətini əks etdirmək baxımından maraq doğurur. Məsələn, əlləri qoynunda dayanmış Hüseyn Cavidin portreti canlı və mənalıdır. Böyük şairin duruşu, baxışı, uzaqdan görünən Araz çayı, habelə İlanlı dağ tamaşaçıya nələr söyləmir?! Eləcə də Nizami Gəncəvinin portreti, çox düşündürücü təsir bağışlayır. Hüseyn Əliyevdən bugünkü nəslə ərməğan qalan bir sıra portretlər var ki, tarixilik baxımından böyük dəyərə malikdir.

Unudulmaz rəssamın Azərbaycan təsviri sənətindəki xidmətlərindən çox danışmaq olar. Hüseyn Əliyevin yaradıcılıq sahəsi olduqca geniş olub. İstifadə etdiyi rənglərin çalarları al-əlvandır. 2004-cü ildə bir fərəhləndirici hadisə həm rəssamın pərəstişkarlarını, həm də Azərbaycan mədəniyyətinin vurğunu olan insanları sevindirdi. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində görkəmli rəssamın əsərlərindən ibarət sərgi təşkil edilmişdir. Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə həyata keçirilən bu tədbir yüksək dəyərləndirilmişdir. Xarici ölkə vətəndaşları azərbaycanlı rəssamın rənglərin musiqisini təbiətin rəngində tablolara əks etdirmək məharəti qarşısında məmnun qalmışdılar. Bu xoş münasibət hər kəsdə böyük qürur doğururdu ki, Həsən Əliyev vurğunu olduğu və qarış-qarış gəzdiyi Azərbaycanın əsrarəngiz mənzərələrini kətanlara köçürərək bir-birindən gözəl, nəfis, orijinal əsərlər yaradıb. Bu əsərlər bu gün də onu seyr edənləri heyrətə gətirməkdədir.

Rəssamın peşəkarlığının ən diqqətçəkən cəhətlərindən biri də o idi ki, onun rənglərlə işləmək məharəti canlı və təbii idi. Bu gün həmin yadigarlara baxanda inana bilmirsən ki, gördüklərinin arxasında nəhəng təbiətin özü yox, kətan dayanır. Hüseyn Əliyev təkcə istedadlı rəssam deyildi. O, xaraktercə çox səmimi və təbii insan idi. Bəlkə də bu məziyyətləri ona rəssamlıq işində yardımçı olurdu. Bu səbəbdən Hüseyn Əliyevi kiminləsə müqayisə etmək, onun hansısa bir əsərinin analoqunu axtarmaq əbəsdir. Hüseyn Əliyevin əsərlərinin qəribə cazibə qüvvəsi var. Baxdıqca rənglərin dünyasına düşürsən. Çünki böyük sənətkar yaratdığı əsərlərə öz rəngləri və onlara olan münasibəti ilə elə bir möhür vurmuşdur ki, onun yaradıcılığına az-çox bələd olan hər kəs ilk dəfə gördüyü əsərin müəllifini dərhal tanıya bilir.

Bu unudulmaz rəssamın yaradıcılıq emalatxanasında mənzərələr, tablolar, portretlər, natürmortlarla bərabər, digər janrlarda işlədiyi əsərlər də çoxdur. O, uzun müddət nəqqaşlıqla da məşğul olub, su boyaları ilə işləyib. Alleqorik əsərlərə müxtəlif məzmunlu karikaturalar, təsvirlər çəkib, kitablara illüstrasiyalar işləyib. Bütövlükdə Hüseyn Əliyev yaradıcılığının ətraflı öyrənilməsi, onun təsviri sənətimizdəki yeri barədə mükəmməl tədqiqatların aparılması vacibdir. Böyük rəssam, ecazkar fırça ustası Hüseyn Əliyevin əsərlərində təbiəti real mənzərələrlə təsvir etmək bacarığı - dağlar, ağaclar, çaylar sənətkarın yaradıcılığının ana xəttini təşkil edir. Monumentallığı ilə seçilən mənzərələr qeyri-adi koloriti ilə diqqəti cəlb edir. Bu, onun vətənə olan böyük sevgisindən xəbər verir. Hüseyn Əliyevin əsərləri ölkəmizdən kənarda da tanınır, sevilir, yüksək qiymətləndirilir və milli incəsənətin ucalığını əks etdirir.

Həmkarları həmişə xatırlayırlar ki, Hüseyn Əliyev bir fikri sevərək təkrarlayırdı: “Mənim müəllimim təbiətin özüdür!” Uşaqlığı Zəngəzur və Naxçıvanda keçən rəssam təbiətin rəngarəng qammasının vurğunu olub. Bu vurğunluq onun hər bir əsərində, rənglərin palitrasında, yaradılmış obrazların reallığında hiss olunur.

Ustad tərəfindən yaradılan bütün əsərlərin əsasını şəxsiyyətin psixoloji dərkedilməsi və təbiətin fəlsəfəsi təşkil edir. Ustad onu əhatə edən təbiətdə digərlərinin görmədiyi nəyisə görür, onu özünəməxsus, adi baxışa zidd dərk edir. O, qəhrəmanlarının simalarında sevinc və kədərə inanaraq onların qəlblərinin daxili vəziyyətini çox incəliklə tamaşaçılarına çatdıra bilirdi. Ona görə də dahi rəssamın əsərləri onun istedadını tanıyan və hörmət edən bir çox insanların qəlbində yaşayır.

Hüseyn Əliyev bütün gözəllikləri sevən, sakit və azad fikirli rəssam olmuşdur. Təsvirin heyranedici reallığı və rənglərə olan qeyri-adi hissiyyatı sayəsində romantik mənzərələrin rəssamı kimi tanınmışdır.

Hüseyn Əliyev məktəbinin davamçıları deyirlər ki, ustad sənətkar öz əsərləri vasitəsilə bizə dünya və harmoniya haqqında məsləhətlər verirdi. Mənzərələrinin rəngarəngliyi romantizmə həvəsləndirir, insanın hiss və emosiyalarına güclü təsir edir. Parlaq rəng palitrası Hüseyn Əliyev mənzərələrinin xarakterik xüsusiyyətlərindəndir.

Xalq rəssamı Hüseyn Əliyevin yaratdıqları əbədiyaşardır, odur ki, böyük sənətkar xalqımızın və sənətsevərlərin qəlbində daim yaşayacaq.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

## Ruhunun məkanı Qarabağ olanlar



# Qarabağın Aslanı

### Milli Qəhrəman Allahverdi Bağırovun məzarı qalib Ağdamın yeni ziyarətgahlarından birinə çevrilib

**... Atası Teymur Allahverdi oğlu Bağırov əslən Qubadlıdandır. Atası Allahverdi kişi 1918-ci ildə Qubadlıda erməni müsəlman davasında döyüşürmüş. Həyat yoldaşı da onunla birgə olduğundan “Allahverdini qoyub gedə bilmərəm” - deyib, Teymuru həvalə edib öz qardaşlarına...**

### Baba Allahverdidən nəvə Allahverdiyə...

Pirverdi dayıları beş yaşlı Teymuru və onun Sayalı adlı balaca bacısını hərəsini xurcunun bir gözünə qoyub, at belində gətirib Ağdama. Uşaqları Ağdamda qohumlara tapşırıb geri qayıdan Pirverdi kişi görüb ki, Qubadlıda uşaqların ata-anası şəhid olub. İkisini də Eyvazlı kəndində meşədə dəfn edib.

Bu, baba Allahverdi Bağırovun taleyi və sonu...

İndi söhbət açacağımız qəhrəman isə nəvə Allahverdi Bağırovdur. Düşmən hamımıza, yəni həm də bu ocağa nəsilbənəsil qənim kəsilib. 100 illərlə çəkmişik onların qovğasını və babalar yaşadığını, nəvələr də yaşayıb...

### Qolunu qatlamaq mümkün olmayan oğul...

Teymur Bağırov Ağdamda böyüyüb. Ağdama onun kimi köçkün gələn Zümrüd adlı Şuşalı qızla ailə qurub. Ailəsində 10 uşaq olub, 7 qız, üç oğlan...

Əzəl çətinlikləri olsa da, sonra həyatları qaydasına düşüb. Ağdamda səkkizotaqlı böyük evləri varmış. Teymur kişi Ağdamda xeyirxahlığı ilə ad çıxarıb, yıxılanı qaldıran, əl tutan adam olub.

Allahverdi altı qızdan sonra dünyaya gələn, əzizlənən oğul idi. Atası İkinci Dünya müharibəsindən qayıdandan sonra 1946-cı il aprelin 22-də doğulub Allahverdi. Hər il onun adına qurban kəsilərmiş. Bacıları əhd etdikləri kimi, qurbanlığı qohum-qonşuya ayaqyalın paylayarmışlar. Özündən sonra daha iki qardaşı və iki bacısı olub.

Teymur kişi davadan qayıdandan sonra Ağdam kolxoz bazarında qəssab işləyirmiş. Hər il ailədə yalnız Allahverdinin ad günü qeyd olunurdu. Bacısı Almaz Bağırova danışır ki, ancaq Allahverdiyə qiymətli nə isə alınardı: “Hamımız üçün də elə idi, elə qəbul olunmuşdu. Bir dəfə Ağdamda zəlzələ oldu. Oyandım ki, anam Allahverdini çağırır ki, dur qaç çölə, zəlzələdir. Heç birimizi səsləmir. Ancaq onu xilas etməyə çalışır: “Ədə, anan ölsün, dur qaç çölə. Hər kəlməsinin başı ona “anan ölsün” idi”.

Almaz xanım deyir hamımız Allahverdini qoruyurduq. Kimsə ona bir söz deməsin, döyməsin: “Hardasa 7-8-ci siniflərdə oxuyanda Allahverdi qolunu qatlamaq mümkün olmayan bir oğul oldu, sarışın, hündür. Bir gün bacımızın “paltarbiçdisi” (Qarabağda qız toyu) idi, kimsə gəldi dedi ki, 5 nömrəli məktəbin qabağında 10-15 nəfər birdən Allahverdinin üstünə düşüb. Hamımızdan qabaq o “paltarbiçdisi” olan bacım qaçdı. Anam dizinə vurdu ki, vay, bu qız hara qaçır, biabır olduq. Getdi, gülə-gülə qayıtdı dedi ki, biri də qəddini aça bilmədi, Allahverdi cəld tərpənib təkbaşına hamısının cavabını verdi. Həyatı boyu Allahverdi bir düyməsi qırılmış, harasısa zədələnmiş gəlmədi. Sözü də böyük idi, tez-tez davaya düşürdü. Heç kim onu sındıra bilmədi”.

### Yüngül atletikadan voleybola, oradan da futbola...

Allahverdinin 20 yaşı olanda anası 51 yaşında dünyasını dəyişib. Qadının tabutunu həyətin ortasında vidalaşmaq üçün qoyanda Allahverdi çöl darvazadan anasının tabutuna qədər dizin-dizin iməkləyib. Uzun müddət Allahverdini anasının məzarından ayırmaq olmurdu. Gecələr də gedib onunla “söhbətləşərmiş”...

Anadan sonra uşaqlar Almaz bacılarının ümidinə qalıb. Onlara həm ana olub, həm bacı.

Allahverdi yüngül atletika ilə məşğul idi. Sonra bir müddət voleybol oynayıb, nəhayətdə keçib futbola. Bir gün qonşu kəndin gəncləri ilə dava düşüb. Arada Allahverdi də olub. Onun zərbələrindən 10-11 nəfər xəstəxanaya düşüb. Kəndin camaatı biləndə ki, onları Allahverdi yaralayıb, şikayətlərini götürüblər geri. Deyiblər ki, biz hamımız Teymur əminin oğlu olsun deyə, onunla bərabər qurban deyən adamlarıq, indi həmin oğuldan necə şikayətçi ola bilərik. Bacısı deyir evdə çox sakit idi, mehriban, ürəyiyumşaq: “Səsi çıxmazdı, yüksəkdən danışmazdı. O qədər kövrək idi, balaca bacımızın ağlamağına dözməzdi”.

Analarından beş il sonra ataları da rəhmətə gedir. O zaman Allahverdi peşəkar idmanla məşğul olurdu. Qiyabi təhsil alırdı. Əsgərlikdən qayıdan qardaşı Eldar atasının ət dükanını işlədirdi. Allahverdi evə çörək belə almazmış, elə vərdişi olmayıb. Ancaq evlənəndən sonra qardaşı Eldar onu yavaş-yavaş evdarlığa cəlb edib, dükan-bazara getməyi, alış-verişi öyrədib.

### Allahverdinin üç gün, üç gecəlik toyu

Qardaşların üçü də gec evlənib, 30 yaşları keçəndən sonra. Allahverdi gec evləndiyi üçün onlar da onun qarşısına keçməyiblər.

1981-ci il dekabrın 13-dən 16-na qədər üç gün Allahverdiyə toy çalınıb. Qonşu kənddən Validə adlı qızla evlənib. 1988-ci ildə Qarabağ müharibəsi başlayanda Allahverdi Bağırov restoran işlədirmiş.

1988-ci ilin 25 fevralında Bəxtiyarla Əlini Əsgəranda ermənilər qətlə yetirdikləri gündən Allahverdi ilə Eldar Bağırovların missiyaları dəyişir. Onların dəfnini, ailələrinə yardımın hamısını Eldar təşkil edir. Gecələr gənclər yığışıb Ağdamı mühafizə edirdilər, növbə çəkirdilər. Qonşu rayonlardan da silah-sursat yığıb gətirirdilər Allahverdinin restoranına. Eldar da ət dükanını buraxmışdı, qardaşlar bütün sakinlər kimi ancaq Ağdamın müdafiəsinin qeydinə qalırdılar.

Düşmən bunları bilib Eldarın başına pul mükafatı qoyur.



*Dövlət Sərhəd Xidmətinin polkovnik-leytenantı Zümrüd Bağırova və Dövlət Sərhəd Xidmətinin tibb xidməti kapitanı Aynur Bağırova ataları Milli Qəhrəman Allahverdi Bağırovun məzarı başında*

Qubadlı, Laçın rayonları da silah-sursat üçün Eldara müraciət edirdilər. Şuşaya pomidor yeşiklərinin altında silah daşıtdırırmış.

### İlk batalyon

1991-ci ilin 1 oktyabr ayında Azərbaycan Silahlı Qüvvələrinin Ağdamdakı hərbi hissələri Allahverdi və qardaşı Eldar Bağırovun komandirliyi altında yaradılıb. Eldar Bağırovun rəhbərlik etdiyi hərbi hissə 845 nömrəli Ağdam Ərazi Özünümüdafiə taboru idi. 760 nəfərlik olan batalyon “Vətən oğulları” adlanırdı.

Eldar Bağırov millət vəkili seçiləndən sonra Qarabağda bəzi ermənilər yaşayan kəndlərin erməni əhalisi sənəd imzaladılar ki, biz Azərbaycan vətəndaşlığını istəyirik. Sənədlər Eldar Bağırovda olub, Ayaz Mütəllimova verməli idi. Axşam parlamentdən evə qayıdanda Bakıda bacısıgilin evlərinin qarşısında Eldar Bağırovu gülləyib, üstündəki sənədi götürürlər. İndiyə qədər də qatil tapılmayıb...

Qardaşı Eldarın ölümündən sonra Allahverdi Bağırov batalyona rəhbərliyi də özü edirdi...

